

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 38 (880) ■ 4 oktyabr 2017 www.vergiler.az Qiyməti: 60 qəp.

## Azərbaycan çox güclü idman potensialı olan ölkələrdəndir

**Sentyabrın 29-da Heydər Əliyev Mərkəzində Azərbaycan Milli Olimpiya Komitəsinin (MOK) yaranmasının 25 illik yubileyi münasibətilə təntənəli mərasim keçirilib. Azərbaycan dövlətinin başçısı, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və ailə üzvləri mərasimdə iştirak ediblər.**



Yubiley mərasimində çıxış edən dövlətimizin başçısı bildirib ki, ölkəmizdə Olimpiya Hərəkatı və idman uğurla, sürətlə inkişaf edir, Azərbaycan dünyada idman dövləti kimi tanınır. Dövlət bu istiqamətdə öz siyasətini apararkən idmanın hərtərəfli inkişafına nail ola bilib: «Bütün müvafiq qurumlar, Milli Olimpiya Komitəsi, Gənclər və İdman Nazirliyi, idman cəmiyyətləri, federasiyalar, klublar bir məqsədi güdür ki, Azərbaycanda idman daha da inkişaf etsin, idmanın kütləviliyi daha da geniş vüsət alsın və idmançılarımız bizi beynəlxalq yarışlarda tez-tez sevindirsinlər. Bax, bu birgə fəaliyyət nəticəsində və idmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atmışdır».

Azərbaycan Prezidenti bildirib ki, dövlət investisiyaları hesabına Azərbaycanda bir çox müasir Olimpiya idman qurğuları tikilib istifadəyə verilib, bölgələrdə 50-yə yaxın müasir Olimpiya İdman Kompleksi tikilib: «Bakıda isə bu gün ən müasir idman infrastrukturu mövcuddur. Əvvəlki illərdə tikilmiş idman obyektləri əsaslı təmir olundu və eyni zamanda, son illərdə bir neçə böyük stadion, idman zalı inşa edildi. Onların arasında, əlbəttə ki, təxminən 70 min tamaşaçı yeri olan Olimpiya Stadionunu qeyd etməliyəm. Milli Gimnastika Arenası, Su İdmanı Sarayı və Bakı Atıcılıq Mərkəzinin tikintisi böyük investisiya tələb edən müasir idman qurğularıdır. Eyni zamanda, Bakıda idman şəhərciyi fəaliyyət göstərir. Bir sözlə, son illər ərzində həm bölgələrdə, həm Bakıda idmanın inkişafına, infrastruktur layihələrinə qoyulan vəsait öz nəticəsini verməkdədir».

**İdmana cavabdehlik daşıyan bütün qurumlar arasındakı koordinasiya sayəsində Azərbaycan beynəlxalq aləmdə idman sahəsində çox böyük uğurlara imza atıb**

Dövlətimizin başçısı qeyd edib ki, idmançılarımız ölkəmizi beynəlxalq arenalarda ləyaqətlə təmsil edirlər. Azərbaycan idmançıları, eyni zamanda, Avropa və dünya çempionatlarında böyük uğurlar qazanırlar: «Bu il bizim iki idmançımız sərbəst güləş və boks üzrə üçüncü dəfə dünya çempionu olub. Bu da tarixi nailiyyətdir. Bir sözlə, bu gün Azərbaycan o ölkələrdəndir ki, onun çox güclü idman potensialı var. Həm infrastruktur, həm idmançıların hazırlığı, gənc idmançıların hazırlanması - biz bu məsələyə kompleks şəkildə yanaşırıq. Bir daha qeyd etmək istəyirəm ki, bütün müvafiq qurumlar bir nöqtəyə vurur, bir məqsədə qulluq edir və məhz buna görə də biz idmanda bu nailiyyətləri əldə edə bilmişik. Biz beynəlxalq arenada - Beynəlxalq Olimpiya Komitəsi, Avropa Olimpiya Komitələri çərçivəsində də fəal iştirak edirik. Bizim beynəlxalq federasiyalarla da çox yaxşı əlaqələrimiz var. Təsadüfi deyil ki, Azərbaycanda demək olar ildə bir neçə dəfə mötəbər beynəlxalq yarış keçirilir».

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda dünya, Avropa çempionatlarının keçirilməsi həm ölkəmizin potensialını, həm bizim siyasətimizi, həm də imkanlarımızı göstərir: «Çünki bu oyunlar sadəcə olaraq idman yarışları deyil. İdman dostluğu möhkəmləndirən, xalqlararası münasibətləri gücləndirən önəmli bir amildir. Bir şəhərdə cəmi iki il ərzində həm Avropa, həm İslam oyunlarının keçirilməsi bizim sivilizasiyalararası dialoqa verdiyimiz növbəti töhfə kimi də qəbul edilməlidir. İdman ictimai həyatın önəmli amili kimi, əlbəttə, bundan sonra da öz rolunu oynayacaq. Azərbaycan idman yarışlarını keçirərkən, əlbəttə, eyni zamanda, bu məqsədi də güdür ki, idmançılar arasında, xalqlar arasında, ölkələr arasında münasibətlər qarşılıqlı etimad və hörmət əsasında qurulsun».

Yubiley tədbirində iştirak edən Avropa Olimpiya Komitələrinin icraçı prezidenti Janez Koçijançiç öz çıxışında 25 illik tarix ərzində Azərbaycan xalqının idman sahəsində əldə etdiyi nailiyyətləri fantastik adlandırıb və bunu idmanın milli səviyyədə inkişaf etdirilməsi, cəmiyyət daxilində idmanın daha da kütləviləşdirilməsi üçün dövlətin həyata keçirdiyi siyasətin mühüm nəticəsi kimi qiymətləndirib.

Sonra Janez Koçijançiç Azərbaycan Prezidenti İlham Əliyevə, birinci xanım Mehriban Əliyevaya və Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadəyə MOK-un yaranmasının 25 illik yubileyi münasibətilə Avropa Olimpiya Komitələrinin xüsusi mükafatlarını təqdim edib.

## Prezident İlham Əliyevin Qobustan və Şamaxı rayonlarına səfəri

Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 2-də Qobustan rayonuna gəlib. Dövlətimizin başçısı əvvəlcə ulu öndər Heydər Əliyevin Qobustan şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.



Səfər çərçivəsində Prezident İlham Əliyev Bakı-Şamaxı-Muğanlı avtomobil yolunun 55-101-ci kilometrlik hissəsini əhatə edən Cəngi-Bədəlli yolunun, əsaslı təmir edilən Təklə-Sündü-Xilmilli avtomobil yolunun açılışında iştirak edib, yeni tikilmiş 100 yerlik uşaq bağçasında yaradılməş şəraitlə tanış olub. Daha sonra dövlətimizin başçısı «Qobustan şəhərinin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması» layihəsinin yekunlaşması ilə bağlı təşkil olunan mərasimdə iştirak edib.

Həmin gün Prezident İlham Əliyev Şamaxı rayonuna gəlib. Əvvəlcə Şamaxı şəhərinin mərkəzində ucaldılməş ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edən dövlətimizin başçısı sonra Şamaxı-Çöl Göylər-Padar avtomobil yolunun açılışında iştirak edib, rayonda fəaliyyət göstərən «Az-Granata» MMC-yə məxsus üzüm bağları ilə tanış olub. Bildirilib ki, «Az-Granata» MMC də Şamaxı rayonunda üzümçülüyün inkişafı istiqamətində xeyli iş görüb. Beş ildir ki, məhsul istehsal olunur. 2016-cı ildə «Az-Granata»nın üzüm bağlarından 3 min ton məhsul tədarük edilib. Şamaxı üzüm bağları 2009-cu ildə 25 hektar sahədə salınmağa başlanıb. Hazırda üzüm bağı 375 hektardır. Onun 309 hektarı texniki üzüm növləri, 66 hektarı isə süfrə üzümü bağıdır. Ərazinin dəniz səviyyəsindən yüksəklikdə yerləşməsi, illik yağıntıların miqdarı, temperatur göstəriciləri və bu yerlərdən götürülən torpaq nümunələrinin laboratoriyalarda aparılan analizləri Şamaxıda yüksək keyfiyyətli nadir üzüm növlərinin yetişdirilməsinin mümkünlüyünə əsas verir. Üzüm tingləri Fransa, Türkiyə və Gürcüstandan gətirilən ən yaxşı növlərdən ibarətdir.

Səfər çərçivəsində dövlətimizin başçısı Şamaxı şəhərinin içməli su təchizatı layihəsinin açılışında iştirak edib. Bildirilib ki, layihə 2035-ci ilə perspektiv inkişaf nəzərə alınmaqla Şamaxı şəhərində 41 min nəfərin içməli su təchizatı və kanalizasiya xidmətlərindən istifadəsinin yaxşılaşdırılmasına hesablanıb. Layihənin icrasına 2010-cu ildə başlanılıb. Birinci mərhələdə Şamaxı şəhərini keyfiyyətli və dayanıqlı su ilə təmin etmək üçün Pirsaatçayın məcrasında məhsuldarlığı saniyədə 120 litr olan drenaj tipli suqəbuledici qurğu, xlorlaşdırma binası, həcmi min kubmetr olan iki su anbarı, bir su nasos stansiyası tikilib. Su mənbəyindən anbarlara qədər 3,4 kilometr magistral kəmər çəkilib.

Həmin gün Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva əsaslı surətdə yenidən qurulan Pirqulu-Dəmirçi avtomobil yolunun açılışında iştirak ediblər, daha sonra Şamaxı rayonunun Dəmirçi kəndində görülən işlərlə tanış olublar. Bildirilib ki, turizm baxımından böyük potensialı olan Dəmirçi kəndi Şamaxının ən qədim kəndlərindən biridir və onun tarixi XV əsrə gedib çıxır. Kəndin bərpası və tarixi simasının qorunması ilə bağlı son illərdə mühüm işlər həyata keçirilib. İlk növbədə, kənddəki məscid bərpa olunub. Ölkəmizin ən qədim dini ocaqlarından olan Dəmirçi məscidi 755-ci ildə tikilib və bərpa edilib, kənddə digər yenidənqurma işləri aparılıb.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva yeni yaradılan Şamaxı Safari Parkı ilə tanış olublar. Məlumat verilib ki, Azərbaycanda elmi əsaslarla ov ekologiyasının yaranması, vəhşi populyasiyada olan heyvan növlərinin Azərbaycan təbiətinə adaptasiyası məqsədilə 2014-cü ildə yaradılan «Azər Ekov» MMC qısa müddətdə bu istiqamətdə zəruri olan işləri görməyə başlayıb. Ekoloji parkın daxili infrastrukturunun yaradılması istiqamətində də mühüm işlər görülüb. Parkda heyvanlar üçün çox sayda təbii daldalanacaqlar düzəldilib, kənar təsirlərdən və yoluxucu xəstəliklərdən qorumaq üçün beynəlxalq standartlara uyğun dəmir-beton dayaqlara hörülmüş 52 kilometr uzunluğunda çəpər çəkilib, ərazidə geniş abadlıq işləri aparılıb.

## Hərbi-texniki sahədə birgə fəaliyyət genişləndirilir

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 28-də Türkiyə Respublikasının milli müdafiə naziri Nurəddin Caniklinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Dövlətimizin başçısı Nurəddin Caniklini Türkiyə Respublikasının milli müdafiə naziri kimi yüksək vəzifəyə təyin olunması münasibətilə təbrik edib və ona fəaliyyətində uğurlar arzulayıb. Türkiyəli nazirin qısa müddət ərzində Azərbaycana səfərə gəlməsindən məmnunluğunu ifadə edərək bildirib ki, ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən hərbi-texniki sahədə çox yaxşı əməkdaşlıq və iş birliyi mövcuddur, hərbi texnikanın Türkiyədən alınması Azərbaycanın gücünü daha da artırır.

Nurəddin Canikli Azərbaycan ilə Türkiyənin qardaş ölkələr olduğunu və əlaqələrimizin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq bildirib ki, məqsədimiz bu əməkdaşlıq əlaqələrini daha da genişləndirmək və möhkəmləndirməkdir. O, Türkiyənin FETÖ ilə mübarizəsinə ölkəmizin verdiyi dəstəyə görə dövlətimizin başçısına minnətdarlığını ifadə edib.

## Təhlükəsizliklə bağlı əməkdaşlıq uğurla inkişaf edir

Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 30-da Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşevi qəbul edib. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi, təhlükəsizlik və digər sahələrdə uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı iqtisadi-ticarət əməkdaşlığının genişləndiyini, idxal-ixrac əməliyyatlarının yaxşı inkişaf dinamikasına malik olduğunu vurğulayıb. Prezident İlham Əliyev təhlükəsizlik sahəsində Azərbaycan ilə Rusiya arasında ənənəvi sıx əməkdaşlığın mövcud olduğunu, dünyada və regionumuzda təhdidlərin artdığı bir dövrdə ölkələrimizin yaxın təmasda olmasının önəminin artdığını xatırladıb.

Nikolay Patruşev təhlükəsizlik sahəsində Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında əməkdaşlığın uğurla inkişaf etdiyini vurğulayaraq bildirib ki, biz Azərbaycanla dünyada meydana çıxan yeni təhdidləri və bunlarla ikitərəfli qaydada mübarizənin yollarını müəyyənləşdiririk.

## Münasibətlərin səviyyəsi məmnunluq doğurur

Prezident İlham Əliyev oktyabrın 3-də Ukraynanın xarici işlər naziri Pavlo Klimkinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. Görüş zamanı dövlətimizin başçısı ölkələrimiz arasında münasibətlərin səviyyəsindən məmnunluğunu ifadə edib, qeyd edib ki, əsas məsələlərdən biri iki ölkənin imkanlarından istifadə edərək ticarət dövriyyəsinin artırılmasından, ixrac-idxal əməliyyatlarının genişləndirilməsindən və mümkün investisiya layihələrinin müəyyənləşdirilməsindən ibarətdir. Nəqliyyat sahəsində də əməkdaşlığın önəmini qeyd edən ölkə Prezidenti Ukraynadan Asiyaya göndərilən yüklərin bir hissəsinin Azərbaycandan keçdiyini vurğulayıb və dəmir yolu strukturları arasında beynəlxalq formatda fəal əməkdaşlığın aparıldığını deyib.

Pavlo Klimkin Prezident Petro Poroşenkonun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırıb. İki ölkə arasında iqtisadi əməkdaşlığa toxunan qonaq son yarım ildə qarşılıqlı ticarət dövriyyəsinin əhəmiyyətli dərəcədə artdığını vurğulayıb. Ukraynanın xarici işlər naziri yüksək səviyyədə keçirilən görüşlərin əlaqələrimizin genişləndirilməsi baxımından əhəmiyyətini qeyd edib və Azərbaycan Prezidentinin Ukraynaya səfərinin ölkəsində səbirsizliklə gözlənildiyini bildirib.

BU NÖMRƏMİZDƏ

QLOBAL RƏQABƏTLİLİK HESABATINDA AZƏRBAYCANIN MÖVQEYİ YAXŞILAŞIB 2

TRANSFER QİYMƏTLƏRİNƏ NƏZARƏT VERGİ UÇOTUNUN ŞƏFFAFLAŞDIRILMASINA XİDMƏT EDİR 3

«ASAN XİDMƏT İNDEKSİ» ÜZRƏ QİYMƏTLƏNDİRMƏNİN NƏTİCƏLƏRİ AÇIQLANIB 4

AZƏRBAYCANDA İQTİSADİ İSLAHATLAR: NAİLİYYƏTLƏR VƏ PERSPEKTİVLƏR 5

# Qlobal rəqabətlilik hesabatında Azərbaycanın mövqeyi yaxşılaşıb

**Dünya İqtisadi Forumu dünya ölkələrinin rəqabətqabiliyyətliliyi səviyyəsini xarakterizə edən növbəti «Qlobal Rəqabətqabiliyyətlilik İndeksi 2017-2018» hesabatını dərc edib. Hesabatın hazırlanmasında statistik məlumatlardan və dünyanın 137 ölkəsində fəaliyyət göstərən iş adamları arasında sorğunun nəticələrindən istifadə olunub.**




Hesabatda bildirilir ki, qlobal iqtisadi artımın ləng getməsi, maliyyə bazarlarındakı qeyri-sabitlik, yüksək borc səviyyəsinin davam etməsi bütün ölkələrin iqtisadiyyatına təsir edib. Son illər daha da dərinləşən böhran dünya üzrə ÜDM-in artımının 2016-cı ildə 2,4%-ə düşməsinə səbəb olub, 2017-ci ildə isə bu rəqəmin 1,5% səviyyəsinə düşməsi gözlənilir. Gələcək artım perspektivlərinə isə baş verən uzunmüddətli tendensiyalar mane olur.

Azərbaycan Dünya İqtisadi Forumunun 2017-2018-ci illərə dair rəqabətqabiliyyətlilik hesabatında 35-ci yerdə qərarlaşıb. Respublikamız ötən illə müqayisədə 2 pillə irəliləyərək mövqeyini daha da yaxşılaşdırıb. 137 dövlətin yer aldığı reytinqə əsasən, Azərbaycan postsovet məkanında ən yüksək yerdə qərarlaşıb (Rusiya 38-ci, Qazaxıstan 57-ci, Gürcüstan 67-ci, Ermənistan 73-cü, Tacikistan 79-cu, Ukrayna isə 81-ci yer) və ümumi reytinq göstəricisi 4,7 bənd təşkil edib. Azərbaycan reytinq hesabatında bəzi indekslər üzrə Avropa regionunda ən yaxşı göstəricilər əldə edən dövlət kimi qərarlaşıb. Belə ki, ölkəmiz «əmək bazarının səmərəliliyi» indeksi üzrə 17-ci, «məhsul və xidmətlər bazarlarının effektivliyi» indeksi üzrə 31-ci, «innovasiyalar» indeksi üzrə 33-cü yeri tutub. Biznesin səmərəliliyi üzrə 40-cı yerdə qərarlaşan Azərbaycan biznes sektorunda son bir ildə aparılan islahatların həcm və əhatəliliyinə görə əksər ölkələrdən daha yaxşı nəticə qazanıb. Həmin indeks üzrə 20 pillə irəliləyən Azərbaycan iqtisadi klasterlərin inkişafı və rəqabətin üstünlüyü meyarlarının təmin olunması sayəsində bu irəliləyişə nail olub.

Hesabatı şərh edən Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru Samirə Musayeva bildirib ki, Azərbaycanda sahibkarlığa, xüsusilə də kiçik və orta sahibkarlığa göstərilən dövlət dəstəyi daxili və xarici sərmayələrin cəlb edilməsinə geniş imkanlar yaradıb. «Azərbaycan Respublikasında biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 13 iyul 2016-cı il tarixli sərəncamından sonra isə bu sahədə işlər daha da sürətləndirilib. Qısa müddət ərzində ölkədə rəqabət prinsiplərinə əsaslanacaq əlverişli biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşdırılması üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi ilə bağlı kompleks tədbirlər həyata keçirilib: «2017-2018 Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycan üzrə qeyd olunan indeks göstəricilərində irəliləyişlərin əldə olunmasında, xüsusən də ölkədə sahibkarlığın, əhalinin məşğulluğunun və maliyyə sabitliyinin inkişafını göstərən «əmtəə bazarının səmərəliliyi», «əmək bazarının səmərəliliyi» və «maliyyə bazarının inkişafı» indeksləri üzrə göstəricilərin yaxşılaşdırılmasında vergi qanunvericiliyinin və vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı aparılan islahatların mühüm rolu olub».

**Sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyinin təmin olunması, rəqabət prinsiplərinə əsaslanan biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi sahəsində mühüm islahatların həyata keçirilməsi beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşmasına səbəb olub**

S.Musayeva qeyd edib ki, əmtəə bazarının səmərəliliyinin artırılması istiqamətində həyata keçirilən tədbirlərə 2016-2017-ci illərdə Vergi Məcəlləsinə biznesə başlama ilə əlaqədar vergi ödəyicisinin uçota alınması müddətinin 2 gündən 1 günə endirilməsi, sahibkarlıq fəaliyyəti üçün əlverişli vergi mühitinin formalaşdırılması məqsədilə investisiya təşviqi sənədi almış sahibkarlıq subyektlərinə mənfəət (gəlir), əmlak, torpaq vergiləri və idxalda tutulan əlavə dəyər vergisi üzrə güzəştlərin verilməsi, ölkə ərazisində istehsal olunan kənd təsərrüfatı məhsullarının pərakəndə satışı zamanı istehlakçıların vergi yükünün aşağı salınması məqsədilə ƏDV-nin ticarət əlavəsindən hesablanması ilə bağlı edilmiş dəyişiklikləri aid etmək olar.

Azərbaycanın reytinqdə irəliləməsinin təqdirəlayiq hal olduğunu bildirən S.Musayevanın sözlərinə görə, bu, qeyri-neft sektorunda aparılan islahatların ölkənin rəqabət qabiliyyətinin yüksəlməsinə gətirib çıxarmasını, neft gəlirlərinin azalmasına baxmayaraq, investisiya mühitinin yaxşılaşdığını, onun dayanıqlı və rəqabətqabiliyyətli iqtisadiyyata malik olduğunu bir daha təsdiqləyir: «Dünya İqtisadi Forumunun hesabatında ölkəmizin mövqeyinin yaxşılaşması Azərbaycan iqtisadiyyatının mövcud vəziyyəti barədə xarici investorlar üçün bir siqnaldır və şübhəsiz ki, respublikamıza xarici investisiyaların cəlb edilməsi baxımından vacibdir».

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin direktoru Vüsal Qasımlı bildirib ki, Azərbaycanın reytinqdə 2 pillə irəliləməsi həm kəmiyyət, həm də keyfiyyət baxımından müsbət addım hesab oluna bilər: «Kəmiyyət nöqteyi-nəzərindən yanaşsaq, biz reytinqdə 2 pillə irəliləmişik, digər tərəfdən isə Azərbaycan reytinqdə keyfiyyətli şəkildə irəliləyib. Bu isə bizim gözləntilərimizə uyğundur. Azərbaycan 12 indikatorun 9-u üzrə irəliləyib. Bu, keyfiyyətli irəliləyiş göstəricisidir. Hesabatda Azərbaycanın mövqeyi 12 indikatordan 9-u üzrə əhəmiyyətli dərəcədə yaxşılaşıb. Yalnız iki indikator - makroiqtisadi mühit və texnoloji hazırlıq üzrə geriləmə olub. Xarici şokların təsirinə baxmayaraq, «makroiqtisadi mühit» kateqoriyası altında «hökumətin büdcə balansı» göstəricisinə görə Azərbaycan 140 ölkə arasında 37-ci olub. Bu kateqoriyada «hökumətin borcu» göstəricisinə görə də ölkəmizin mövqeləri güclüdür: 43-cü yer. Makroiqtisadi mühit kateqoriyasında Azərbaycanın geriləyən göstəricilərindən biri inflyasiya səviyyəsi olub».

V.Qasımlı bildirib ki, Azərbaycanın mövqeyinin dünyanın ən mötəbər reytinqində irəliləməsi aparılan kompleks iqtisadi islahatlar siyasətinə beynəlxalq ictimaiyyət tərəfindən verilən yüksək qiymətdir: «Azərbaycanda biznes mühitinin əlverişliliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında» dövlət başçısının 2016-cı il 13 iyul tarixli sərəncamından sonra bu sahədə kompleks tədbirlər davam etdirilib. Nəticədə ölkədə biznesə başlama prosedurları sadələşdirilib, sahibkarların qeydiyyatı, ixrac qaydaları asanlaşıb, biznesin səmərəliliyi üçün əlavə addımlar atılıb. Eyni zamanda, Prezident İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli fərmanı ilə təsdiq olunmuş «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri» çərçivəsində aparılan davamlı işlər «Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycanın irəliləməsi üçün vacib amil hesab edilməlidir. Həmin sənədlərin icrası sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyinin təmin olunması, rəqabət prinsiplərinə əsaslanan biznes mühitinin yaradılması, ölkənin investisiya cəlbediciliyinin artırılması, qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi sahəsində mühüm islahatların həyata keçirilməsinə imkan verib və bu amillər beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyinin daha da yaxşılaşmasına səbəb olub. Strateji yol xəritələrinin monitorinq və qiymətləndirmə nəticələri də onu göstərir ki, sistemli iqtisadi siyasət kursu öz müsbət nəticələrini verməkdədir. «2017-2018 Qlobal Rəqabətlilik Hesabatı»nda Azərbaycanın iki pillə irəliləməsi digər mötəbər reytinqlərdə də ölkəmizin mövqelərinin güclənməsinə müsbət təsir edəcək».

İqtisadçı alim Vilayət Vəliyevin sözlərinə görə, Azərbaycanın reytinqdə mövqeyinin yaxşılaşmasında bir sıra amillərin, o cümlədən son bir ildə biznes mühitinin təkmilləşdirilməsi və sahibkarların hüquq və mənafelərinin qorunması ilə bağlı həyata keçirilən tədbirlərin mühüm rolu vardır. Dövlət başçısı tərəfindən imzalanmış «Sahibkarlığın inkişafı ilə bağlı əlavə tədbirlər haqqında» fərman ölkədə sahibkarlıq fəaliyyətinin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi və əlverişli biznes mühitinin formalaşdırılması sahəsində yeni imkanlar açıb. 2015-ci ilin sonundan başlayaraq biznes fəaliyyətinin asanlaşmasına xidmət edən layihələrin həyata keçirilməsi, «Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında», «Lisenziyalar və icazələr haqqında» qanunların qəbulu və qüvvəyə minməsi, e-lisenziya sisteminin yaradılması, «bir pəncərə» prinsipi, sahibkarların işini yüngülləşdirən digər mütərəqqi mexanizmlərin tətbiqi və digər amillər hesabatda Azərbaycanın mövqeyinin yaxşılaşmasına səbəb olub. Hazırda respublikamızda biznes mühitinin və rəqabətqabiliyyətliliyin daha da yaxşılaşdırılması məqsədilə tədbirlər davam etdirilir. İxrac qaydalarının sadələşdirilməsi, sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi üçün tələb olunan lisenziya və icazələrin tamamilə elektronlaşdırılması, qeydiyyat sahəsində prosedurların sadələşdirilməsi, idarəetmənin təkmilləşdirilməsi, investorların maraqlarının qorunması və digər sahələrdə yeniliklərin tətbiqi nəzərdə tutulur.

**Elbrus CƏFƏRLİ**

**Dünya İqtisadi Forumu rəqabətqabiliyyətliliyin müəyyən olunması üçün 12 göstəricidən istifadə edir. Bunlar keyfiyyət, infrastruktur, makroiqtisadi sabitlik, sağlamlıq, ilkin təhsil, ali təhsil və peşəkar hazırlıq, əmtəə və xidmətlər bazarının səmərəliliyi, əmək bazarının səmərəliliyi, maliyyə bazarının inkişafı və şəffaflıq, institusional islahatlar və texnoloji səviyyə, daxili bazarın həcmi, şirkətlərin rəqabət qabiliyyəti və innovasiya potensialı üzrə meyarlardır.**

# Hər kəs öz məsuliyyətini bilməlidir!

***Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət və şəffaf vergi partnyorluğu departamentinin hazırladığı «Vergi hüquqpozmalarına qarşı tətbiq edilən məsuliyyət tədbirləri haqqında Yaddaş» nazirliyin rəsmi internet səhifəsində yerləşdirilib. «Yaddaş» vergi ödəyicilərinin hüquqları barədə maarifləndirici səciyyə daşıyır.***

Vergi qanunvericiliyi ilə müəyyən olunmuş vəzifələrə əməl etmək hər bir vergi ödəyicisinin borcu olsa da, müşahidələr göstərir ki, vergi ödəyiciləri heç də bütün hallarda Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinə məsuliyyətlə yanaşmır və vergi qanunvericiliyinin tələblərinə tam əməl etmirlər. Bu isə sonda vergi ödəyicilərinə qarşı inzibati cərimə və maliyyə sanksiyaları tətbiq edilməsi ilə nəticələnir. «Yaddaş»ın hazırlanmasında və vergi ödəyiciləri arasında yayılmasında məqsəd bu cür halların qarşısını almaqdır.

Vergi Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş vergitutma obyektlərindən vergini ödəməli olan istənilən şəxs vergi ödəyicisi sayılır və vergi ödəyiciləri vergilərlə bağlı vergi qanunvericiliyində nəzərdə tutulmuş vəzifələrini tam və vaxtında icra etməyə borcludurlar. Vergi ödəyiciləri, vergi agentləri və onların qanuni nümayəndələri vergi qanunvericiliyinin pozulmasına görə Vergi Məcəlləsi, İnzibati Xətalar Məcəlləsi və Azərbaycan Respublikasının digər qanunları ilə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar və qanunu pozan hər kəs məsuliyyətə cəlb olunur.

«Yaddaş»da vergi qanunvericiliyinin pozulması hallarına görə Vergi Məcəlləsi ilə müəyyənləşdirilmiş maliyyə sanksiyaları və faizlər, vergi hüquq pozuntularına görə inzibati xətaların törədilməsi hallarına görə İnzibati Xətalar Məcəlləsi ilə müəyyənləşdirilmiş cərimələr, eləcə də vergi hüquq pozuntularına görə cinayət əməllərinin törədilməsi hallarına görə Cinayət Məcəlləsi ilə müəyyənləşdirilmiş cəzalar barədə ətraflı məlumat verilib. «Yaddaş» vergi sahəsində qanun pozuntularına görə həm ölkə vətəndaşlarının, həm də əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması hallarını və müddətini də vergi ödəyicilərinin nəzərinə çatdırır. «Yaddaş»dan istifadə etməklə vergi ödəyiciləri öz üzərlərinə hansı vəzifələrin düşdüyü və həmin vəzifələri vaxtında yerinə yetirmədikdə tətbiq olunan cərimə və maliyyə sanksiyaları ilə üzləşə biləcəkləri barədə məlumatlandırılırlar.

Bir daha xatırladırıq ki, vergi ödəyiciləri mövcud qanunvericiliyin tələblərinə tam və vaxtında əməl etməklə öz vəzifələrini yerinə yetirmiş olur, hər hansı maliyyə sanksiyalarına, inzibati cəzalara məruz qalmırlar.

**AYTƏN**

# Gələn ilin dövlət büdcəsi 20 milyard manata yaxın proqnozlaşdırılır

**Nazirlər Kabinetində Baş nazir Artur Rasi-zadənin sədrliyi ilə 2018-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələrinə, sonrakı üç il üçün icmal büdcənin göstəricilərinə, həmçinin Azərbaycan Respublikasının 2018-ci il və növbəti üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinə, habelə büdcə zərfinə daxil olan bir sıra normativ hüquqi sənədlərin layihələrinə baxılıb. İclasda maliyyə naziri Samir Şərifov və iqtisadiyyat naziri Şahin Mustafayev gündəlikdə olan məsələlər ətrafında məruzə ilə çıxış ediblər.**

Büdcə layihəsi ətrafında aparılan geniş müzakirələrin yekununda əlaqədar nazirlik, komitə, idarə və təşkilatlarla birlikdə müvafiq dövlət proqramları əsasında hazırlanan və büdcə zərfinə daxil olan sənədlər toplusunun Azərbaycan Respublikasının Prezidentinə təqdim olunması qərara alınıb.

Mövzu ilə bağlı açıqlama verən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov bildirib ki, 2018-ci ilin dövlət büdcəsinin gəlirləri təxminən 20 milyard manata yaxın proqnozlaşdırılıb. 2017-ci ilin dövlət büdcəsində neftin 1 bareli 40 dollardan hesablanmışdı, bu il isə dövlət büdcəsində neftin qiyməti 45 dollar səviyyəsində hesablanacaq. Millət vəkilinin sözlərinə görə, «2018-ci ilin dövlət büdcəsi haqqında» qanun layihəsində sosial sahəyə 33-35 faiz maliyyə vəsaiti ayrılması nəzərdə tutulub: «Cənab Prezident sosial sahələrə daha çox üstünlük verir. Yəni pensiya, əməkhaqqı, məktəb, xəstəxana tikintisi və digər sosial yönümlü sahələrə daha çox diqqət ayrılacaq. Hesab edirəm ki, hərbi sahəyə də büdcənin 13-15 faizi civarında vəsait ayrılacaq. Büdcədən 35 faizə yaxın investisiya əsaslı xərclərə yönləndiriləcək».

Xatırladaq ki, 2017-ci il dövlət büdcəsinin gəlirləri 16,255 milyard manat, xərcləri isə 16,9 milyard manat məbləğində təsdiqlənmişdi.

Yeri gəlmişkən onu da qeyd edək ki, Nazirlər Kabinetində Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) Müşahidə Şurasının növbəti iclası keçirilib. Müşahidə Şurasının sədri, Baş nazir Artur Rasi-zadənin sədrliyi ilə keçirilən iclasda Fondun 2017-ci il büdcəsində dəyişikliklərin edilməsi məsələsinə baxılıb, büdcəyə dəyişikliklər məqbul hesab edilərək, təsdiq olunmaq üçün Azərbaycan Respublikası Prezidentinə təqdim edilməsi barədə qərar qəbul olunub. Dəyişikliklərlə bağlı detallar Milli Məclisdə müzakirələr zamanı deputatların nəzərinə çatdırılacaq.

**Rəşad SADIQOV**

# Dünyanın məşhur neft-kimya şirkətlərinin top-menecerləri Bakıya gəlir

Oktyabrın 12-13-də Bakıda Beynəlxalq Neft Sammiti keçiriləcək. Qlobal Beynəlxalq Qiymət Agentliyi (Argus) tərəfindən təşkil edilən tədbirin əsas tərəfdaşı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətidir.

Tədbirin təşkilatçıları bildiriblər ki, sammitdə ən iri neft, nəqliyyat, ticarət, neft emalı və neft-kimya şirkətlərinin top-menecerləri bir araya gələrək, öz sahələrində baş verən son hadisələri və yaxın gələcək üçün inkişaf perspektivlərini təhlil edəcəklər. Xəzər regionunda yeni iri layihələrin həyata keçirilməsi və yeni malgöndərmə istiqamətləri axtarışının fəallaşması nəzərə alınmaqla, bu regionun ölkələri neftçıxarma, ticarət və nəqliyyat şirkətləri üçün yenə əsas tərəfdaşlar olaraq qalır. Sammit iştirakçıları neftin və neft-kimya məhsullarının ixracı üçün logistika marşrutlarının inkişaf xüsusiyyətlərini, Xəzər regionu ölkələrinin daxili bazarlarında baş verən dəyişiklikləri nəzərdən keçirəcək, nəqliyyat və neft emalı infrastrukturunun genişlənməsi və modernləşməsi məsələlərini öyrənəcək, İran bazarı ilə qarşılıqlı fəaliyyətin spesifikasını müzakirə edəcəklər.

Sammitdə müzakirə olunacaq əsas mövzular bunlardır: Xəzər dənizi - Aralıq dənizi nəqliyyat dəhlizinin inkişaf perspektivləri; Xəzərin daxili neft və neft məhsulları bazarı; Azərbaycandan neft və neft məhsulları ixracının prioritet istiqamətləri; Xəzər regionunun nəqliyyat-logistika infrastrukturu; dəmiryol daşımaları və tarif siyasəti, gəmi sahibləri, limanlar və terminallar; Xəzər regionunun boru kəməri marşrutları: reallıqlar və perspektivlər; bank seksiyası: İran ilə əməliyyatların maliyyələşdirilməsi, İslamda maliyyələşdirmənin xüsusiyyətləri; Xəzər regionunun neft-kimya sənayesi: istehsal, nəqliyyat, satış və sair.

# Transfer qiymətlərinə nəzarət vergi uçotunun şəffaflaşdırılmasına xidmət edir

**Azərbaycanda Amerika Ticarət Palatası («AmCham»), «Deloitte Azərbaycan», «Ernst & Young Azərbaycan», «KPMG Azərbaycan», «PwC Azərbaycan» auditor şirkətlərinin birgə təşkilatçılığı ilə «Transfer qiyməti: tətbiqi və beynəlxalq təcrübə» mövzusunda konfrans keçirilib.**




Tədbirdə iştirak edən «AmCham»ın prezidenti Nuran Kərimov bildirib ki, Azərbaycan qanunvericiliyində ilk dəfə olaraq transfer qiymətləndirmə konsepsiyası müəyyənləşdirilib. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərin əsas istiqamətlərindən biri xərclərin süni şəkildə artırılması hallarının aradan qaldırılması, transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqidir. Qanunvericilikdə həmin sahə üzrə mühüm qaydalar, transfer qiymətinin müəyyən edilməsi qaydası və transfer qiyməti tətbiq edilməklə vergilərin hesablanması həyata keçirilən subyektlərin dairəsi müəyyən edilib. Transfer qiymətqoymanın tətbiqi vergidən yayınma hallarının qarşısının alınması, vergi inzibatçılığının və vergi uçotunun təkmilləşdirilməsi və şəffaflaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Vurğulanıb ki, konfransın da əsas məqsədi transfer qiymətinin tətbiqi sahəsində mövcud vəziyyəti dəyərləndirmək, vergi ödəyiciləri tərəfindən yeni qaydalara riayət olunması ilə bağlı yaranan çətinlikləri müzakirə etməkdir.

### Vergidən yayınmanın qarşısının alınmasında ən yaxşı mexanizmlərdən biri transfer qiymətlərinə nəzarətdir

«Deloitte Azərbaycan»ın baş meneceri Nərmin Aslanova çıxışında transfer qiymətqoymanın tətbiqi sahəsində dünya ölkələrinin rastlaşdıqları çətinliklərə toxunub. Bildirib ki, transfer qiymətləndirmədən sui-istifadə etməklə vergidən yayınma hallarına Avropanın, demək olar ki, bütün ölkələrində rast gəlinir. Son illərdə dünya iqtisadiyyatının qloballaşması və milli iqtisadiyyatların inteqrasiyası dünya ticarətində şirkətlərin rolunu kifayət qədər artırıb. Şirkətlərin böyüməsi vergi orqanlarına həmin şirkətlərin gəlir və xərclərini düzgün müəyyən etməkdə, eləcə də vergitutma ilə bağlı digər sahələrdə bəzi problemlər yaradır. Bir çox şirkətlər aparılan əməliyyatları əvvəlcədən planlaşdırır və müxtəlif sxemlərdən istifadə edərək vergidən yayınırlar.

«Deloitte Rusiya»nın vergi üzrə direktoru Aleksey Sobçuk Rusiya Federasiyasında transfer qiymətqoymanın tətbiqi sahəsində vergi administrasiyası tərəfindən görülən işlər barədə danışıb. Qeyd edib ki, müstəqil müəssisələr arasında əməliyyatlar aparılan zaman onların razılaşdırdıqları şərtlər və qiymətlər müstəqil surətdə bazar amillərinin təsiri altında formalaşır. Qarşılıqlı surətdə asılı olan şəxslər arasında əməliyyatlar aparılan zaman isə qiymətin əmələ gəlməsinə təsir edən amillər təkcə sərbəst bazar amilləri deyil, əksər hallarda bu əməliyyatların qiymətlərinə ümumi mənfəətin artırılması və bütün qrupun yekun vergisinin minimallaşdırılması məqsədi də təsir göstərir. Yerli və xarici şirkətlərin müxtəlif vergitutma normalarına malik ölkələrdə fəaliyyət göstərməsi onların apardıqları kommersiya əməliyyatlarında vergidən yayınma hallarına yol verilməsi risklərinin qarşısının alınmasında ən yaxşı mexanizmlərdən biri transfer qiymətlərinə nəzarətdir. A.Sobçuk vurğulayıb ki, Rusiyada tətbiq olunan qaydalar və bu sahə üzrə əldə olunmuş təcrübə MDB ölkələri ilə birgə əməkdaşlığın artırılmasına öz töhfəsini verə bilər.

### Vergitutma bazasının azalmasının qarşısı alınacaq

«Ernst & Young Azərbaycan»ın baş meneceri Ülvi Yusifov «Azərbaycanda transfer qiymətqoymada qaydalar çərçivəsində əməliyyatların müxtəlif növləri üçün müqayisəli əməliyyatlar barədə məlumatların araşdırılması» mövzusunda çıxış edib. Bildirib ki, Vergi Məcəlləsinə transfer qiymətlərinin təqvim ili ərzində Azərbaycan Respublikasının rezidenti ilə onunla qarşılıqlı surətdə asılı olan qeyri-rezident şəxslər üzrə ümumi dəyəri 500.000 manatdan artıq olan əməliyyatlara tətbiq edilməsi nəzərdə tutulub: «Vergi Məcəlləsində mühüm əhəmiyyət kəsb edən maddələrdən biri beynəlxalq təcrübə nəzərə alınmaqla vergi ödəyiciləri tərəfindən xərclərin süni şəkildə artırılması hallarının aradan qaldırılmasıdır. Bu, vergi qanunvericiliyinin beynəlxalq təcrübəyə tam uyğunlaşdırılması deməkdir və şəffaflıq, hesabatlılıq baxımından ən mütərəqqi addımlardan biridir. Məcəlləyə edilmiş dəyişikliklər qeyd olunan sahədə aparılan əməliyyatların bazar qiymətləri prinsipinə uyğun aparılmasına nəzarəti təmin edəcək. Bu, müxtəlif subyektlər tərəfindən xərclərin süni şəkildə artırılması cəhdlərinin qarşısı alınmaqla maliyyə nəzarətinin gücləndirilməsi, investorların maraqlarının artması və ölkəyə xarici investisiyaların cəlb edilməsi üçün mühüm rol oynayacaq».

«Ernst & Young Ukrayna»nın ölkə üzrə partnyoru İqor Çufarov, «PwC Qazaxıstan»ın Avrasiyada TQ üzrə nümayəndəsi Anuar Muxanov, «KPMG Niderland»ın transfer qiymətləndirmə üzrə mütəxəssisi Yens Karreman, «KPMG Niderland» digər əməkdaşı Maurits Stuyt transfer qiymətləndirmə üzrə sənədləşdirmə, vergi ödəyiciləri və vergi orqanları arasında qarşılıqlı əlaqə və digər mövzularda təqdimatlarla çıxış ediblər. Qeyd olunub ki, vergi orqanları tərəfindən transfer qiymətlərinin müəyyənləşdirilməsinin məqsədi qarşılıqlı əlaqəli müəssisələr arasında aparılan əməliyyatlarda formalaşan qiymətlərin müstəqil müəssisələr arasında analoji şərtlərdə formalaşa biləcək bazar qiymətlərinə uyğunluğunun təmin olunması və hesablanmış transfer qiymətləri əsas götürülməklə vergilərin hesablanması və ya bəyan edilmiş vergi məbləğlərinə düzəliş olunmasından ibarətdir.

### Vergilər Nazirliyi transfer qiymətləndirmə sahəsində beynəlxalq şirkətlərlə sıx əməkdaşlıq edir

Konfransda çıxış edən Vergilər Nazirliyinin Beynəlxalq əməkdaşlıq və maliyyə institutlarında vergi monitorinqi departamentinin baş direktoru Zaur Fətizadə bildirib ki, qloballaşma və iqtisadi inkişaf şəraitində beynəlxalq şirkətlərin, transmilli korporasiyaların, maliyyə-investisiya qurumlarının fəaliyyətinin genişlənməsi, rəqəmsal iqtisadiyyatın inkişafı, texnologiyaların, qeyri-maddi aktivlərin rolunun artması, eyni zamanda həmin şirkətlərin müxtəlif vergi sistemlərinə malik ölkələrdə fəaliyyət göstərməsi gəlirlərin yuxarı vergi dərəcəli ölkələrdən aşağı vergi dərəcəli ölkələrə köçürülməsinə və şirkətlər tərəfindən həyata keçirilən vergi planlaşdırılması sahəsində yeni əməliyyatların aparılmasına imkan yaradıb. Məhz mənfəətlərin ədalətli bölüşdürülməsi məqsədilə vergi orqanlarının qarşısında transfer qiymətlərinin tətbiqi hallarına xüsusi diqqət yetirilməsi kimi mühüm məsələ dayanır.

**Mənfəətlərin ədalətli bölüşdürülməsi məqsədilə vergi orqanlarının qarşısında transfer qiymətlərinin tətbiqi hallarına xüsusi diqqət yetirilməsi kimi mühüm məsələ dayanır**

Z.Fətizadə qeyd edib ki, hazırda Azərbaycanda çoxsaylı beynəlxalq şirkətlər, korporasiyalar, habelə idxal-ixrac əməliyyatlarını həyata keçirən yerli şirkətlər fəaliyyət göstərir: «Şirkətlərin sayının artması bir tərəfdən ölkədə iqtisadi aktivliyi gücləndirir, investisiya mühitini yaxşılaşdırır, yeni iş yerləri yaratmaqla əhalinin həyat səviyyəsini, maddi rifahını keyfiyyətcə yeni mərhələyə qaldırır, digər tərəfdən isə vergi orqanlarının şirkətlərin gəlir və xərclərinin düzgün müəyyən edilməsini və vergitutma ilə bağlı məsələlərin daha dərindən araşdırılması zərurətini yaradır. Məlum olduğu kimi, ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 4 avqust 2016-cı il tarixli sərəncamı ilə «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri» təsdiq edilib, habelə vergi inzibatçılığının təkmilləşdirilməsi ilə bağlı bir sıra göstərişlər verilib. Həmin tədbirlərin icrası məqsədilə Vergi Məcəlləsinə mühüm əhəmiyyət kəsb edən bir sıra əlavə və dəyişikliklər edilib və 2017-ci il yanvarın 1-dən qüvvəyə minib. Vergi Məcəlləsinə əlavə olunmuş 13.2.65-ci, 14-1-ci, 16.1.4-1-ci və 57.4-cü yeni maddələr, həmçinin 16.1.4-cü maddəyə edilmiş dəyişikliklər vergitutma bazasının azaldılmasının qarşısını almaq məqsədi daşıyır. Sadalanan müddəalarda transfer qiymətinin anlayışı, transfer qiymətlərin müəyyən edilməsi, transfer qiymətlərinin tətbiqi predmeti olan əməliyyatlar barədə arayışın verilməsi və bu arayışın təqdim edilməməsinə görə məsuliyyət tədbirləri məsələləri tənzimlənir. Vergilər Nazirliyinin Kollegiyasının müvafiq qərarı ilə «Transfer qiymətlərinin müəyyən edilməsi və tətbiqi», «Nəzarət olunan əməliyyatlar barədə arayış» forması və onun tərtib edilməsi qaydaları təsdiqlənib».

Baş direktor vurğulayıb ki, transfer qiymətlərində müqayisəli məlumatların (qiymətlərin) əldə olunması mühüm məsələdir: «Bu cür məlumat mənbələrinin ən mühüm komponentlərindən biri mövcud beynəlxalq və regional məlumat bazalarına çıxış imkanı əldə etməkdir. Məlumat bazalarında adətən müəssisələrin maliyyə göstəriciləri, o cümlədən müəssisələrin dövriyyəsi, aktivlərin həcmi, işçilərin sayı, səhmlərin qiymət və indeksləri, müəssisələrin təşkilati strukturu, investorlar və törəmə müəssisələr haqqında məlumatlar, əlaqə vasitələri və digər lazımi informasiyalar göstərilir. Bununla bağlı Vergilər Nazirliyi ilə «Thomson Reuters» şirkəti arasında əməkdaşlığa başlanılıb. Dünyada transfer qiymətləndirməsi sahəsində fəaliyyət göstərən bu şirkətlə bağlanmış müqavilə bir sıra əsas baza moduluna giriş imkanı yaradır və bu bazadan istifadə olunmaqla mövcud metodlar əsasında qiymətləri müqayisə etmək mümkündür. Bu günlərdə «Thomson Reuters» şirkətinin regional nümayəndəsi tərəfindən Vergilər Nazirliyində xüsusi təlimlər keçirilib. 50-yə yaxın vergi orqanı əməkdaşının cəlb olunduğu təlimdə «Thomson Reuters» informasiya sisteminin istifadə qaydaları öyrənilib və iştirakçılara müvafiq sertifikatlar təqdim olunub. Oktyabr ayında daha bir təlimin keçirilməsi nəzərdə tutulur».

### Vergi sistemində yeni tvinninq layihəsi həyata keçiriləcək

Z.Fətizadə onu da qeyd edib ki, Vergilər Nazirliyi tərəfindən vergi ödəyicilərinin transfer qiymətlərinin tətbiqi ilə bağlı tələb olunan «Nəzarət olunan əməliyyatlar barədə» arayışın elektron qaydada təqdim edilməsi üzrə işlər aparılır və yaxın müddətdə yekunlaşacaq: «Hazırda transfer qiymətləri üzrə risklərin analizi sistemi üzərində işlər gedir, burada məqsəd risk kriteriyalarının müəyyən edilməsi və transfer qiymətləri üzrə yoxlamaların yalnız risklər əsasında aparılmasıdır. Bununla yanaşı, Vergilər Nazirliyinin mütəxəssisləri tərəfindən də vergi orqanı əməkdaşları üçün transfer qiymətləri və onların praktiki tətbiqi ilə bağlı seminar-təlimlər keçirilir. Transfer qiymətlərinə dair qabaqcıl beynəlxalq təcrübələrin öyrənilməsi məqsədilə Vergilər Nazirliyinin nümayəndə heyəti bu sahədə kifayət qədər təcrübəsi olan Finlandiyanın Vergi Administrasiyasında və Böyük Britaniyanın Gəlirlər və Gömrük İdarəsində işçi səfərdə olub, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) tərəfindən təşkil edilən seminarlarda iştirak edib».

Bildirilib ki, «Azərbaycan 2020: gələcəyə baxış» İnkişaf Konsepsiyası əsasında Vergilər Nazirliyi tərəfindən hazırlanmış «Vergi sisteminin inkişafı üzrə 2013-2020-ci illər üçün» Strateji Planda nəzərdə tutulan «Transfer qiymətlərin müəyyən edilməsi və vergidən yayınma hallarına qarşı tədbirlərin işlənib hazırlanmasında Azərbaycan Respublikası Vergilər Nazirliyinə dəstək» adlı Tvinninq layihəsi təklifi aidiyyəti üzrə İqtisadiyyat Nazirliyi vasitəsilə Avropa Komissiyasına təqdim edilib. Həmin layihə vergitutma bazasının genişləndirilməsindəki rolu və aktuallığı baxımından Avropa Komissiyası tərəfindən müsbət qarşılanıb. Tvinninq layihəsinin həyata keçirilməsi ilə bağlı tərəfdaş ölkələrin müəyyən edilməsi üçün tender elan olunub və hazırda tenderdə qalib gəlmiş tərəfdaş ölkə ilə danışıqlar aparılır. Layihənin əsas məqsədi transfer qiymətləri ilə bağlı praktiki məsələlərin inzibatçılığına dair Avropa İttifaqı ölkələrinin uğurlu təcrübəsini öyrənmək və gələcəkdə mövcud qaydaların daha da təkmilləşdirilməsidir».

**Elbrus CƏFƏRLİ**

# Növbəti Bakı Ticarət («Shopping») Festivalına hazırlıq görülür

Turizm ölkəmizdə qeyri-neft sektorunun prioritet istiqamətlərindən biridir və milli iqtisadiyyatın inkişafı üzrə Strateji Yol Xəritəsində mühüm yer tutur. Turizmin qeyri-neft sektorunda özünəməxsus yer tutması bu sahədə yeni nailiyyətlərin əldə edilməsinə gətirib çıxarıb.

Ümumdünya Turizm Gününə həsr olunan tədbirdə çıxış edən mədəniyyət və turizm naziri Əbülfəs Qarayevin sözlərinə görə, turizm özlüyündə bir sıra sahələri əhatə edir və bu sahələrin inkişafı üçün əlaqədar strukturlar birgə çalışmalıdır: «Azərbaycan stabil, təhlükəsiz və qonaqpərvər ölkədir. Burada turistlərin istirahəti üçün hər bir şərait mövcuddur. 2016-cı ildə ölkəmizə 2 milyon 248 min turist səfər edib, bu ilin 8 ayında isə Azərbaycana 1 milyon 818 min nəfər turist gəlib. İlk yeddi ayda xarici turistlərin ölkəmizdə bank əməliyyatları ötən illə müqayisdə 97 faiz artaraq 703 milyon manatdan çox olub. Ümumilikdə isə cari ilin 8 ayında xarici turistlər ölkəmizdə 1 milyard 300 milyon manat vəsait xərcləyib. Yerli turistlərin 8 ayda xarici ölkələrdə xərclədiyi məbləğ isə 1 milyard 200 milyon manat olub».

Nazir ölkəmizin regionlarında da turizmin inkişaf etdiyini diqqətə çatdıraraq bildirib ki, bu ilin iyun, iyul və avqust aylarında regionlarda yerləşən hotellərdə 860 mindən çox yerləşdirmə olub, 8 ayda isə bu göstərici 1 milyon 294 min nəfərdən çox olub: «Hazırda Azərbaycan turizm sənayesi 3- 3,5 milyon xarici turisti qəbul etmək iqtidarındadır. Qarşıdakı illərdə turist səfərlərinin artacağını nəzərə alaraq indidən gələcək inkişafa nail olmaq üçün müvafiq addımlar atılır. Ölkəmizin turizm sənayesi dünya turizm sənayesinin ayrılmaz tərkib hissəsidir. Azərbaycan bu sahədə beynəlxalq təşkilatlarda uğurla təmsil olunur. Bu il sentyabrın 11-dən 16-dək Çin Xalq Respublikasının Çenqdu şəhərində Birləşmiş Millətlər Dünya Turizm Təşkilatı (DTT) Baş Assambleyasının 22-ci sessiyası çərçivəsində qurumun Avropa Regional Komissiyasının iclası keçirilib. İclasda Avropa regionundan 5 ölkə - Azərbaycan, Rumıniya, Rusiya Federasiyası, Yunanıstan və Litva 2018-2021-ci illər üçün DTT-nin İcraiyyə Şurasına üzv seçildilər. Azərbaycanın növbəti dörd il müddətinə qurumun İcraiyyə Şurasına üzv seçilməsi son illərdə ölkəmizin turizm sahəsində qazandığı uğurların və Şurada səmərəli fəaliyyətinin təsdiqidir».




Nazir bildirib ki, oktyabrın 15-dən noyabrın 15-dək Bakıda ikinci ticarət («shopping») festivalının keçirilməsi nəzərdə tutulur: «Bu dəfə də festivalda paytaxt sakinləri və şəhərimizin qonaqları üçün bir ay müddətində müxtəlif satış-yarmarkalar və müxtəlif şou-proqramlar təşkil ediləcək. İkinci festival da özünəməxsus yeniliklər, maraqlı mədəni tədbirlər və sürprizlərlə zəngindir. Azərbaycanın zəngin mədəniyyətini, turizm imkanlarını, eləcə də ticarət potensialını əks etdirəcək festival ilk günlərdən ziyarətçilərin və iştirakçıların böyük axınına səbəb olacaq. Dünyanın bir çox ölkəsindən turistlərin və alıcıların diqqətini cəlb edən festival zamanı əyləncə ilə alış-verişin vəhdəti hər bir iştirakçı üçün unudulmaz anlarla yadda qalacaq. İkinci festival birincidən iştirakçı şirkətlərin və festivala daxil olan məhsulların çeşidinin çoxluğu ilə fərqlənəcək».




Qeyd edək ki, bu günlərdə ölkə başçısı oktyabrın 15-dən noyabrın 15-dək Bakı şəhərində keçiriləcək ticarət festivalı («shopping») ilə bağlı əlavə tədbirlər haqqında sərəncam imzalayıb. Festivalın təşkili məqsədi ilə 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan Mədəniyyət və Turizm Nazirliyinə 1 milyon manat ayrılıb.

Xatırladaq ki, ölkəmizdə ilk ticarət festivalı bu ilin aprel ayının 10-dan may ayının 10-dək keçirilib. Festivalın operatoru səlahiyyətlərini həyata keçirən Vergilər Nazirliyi tərəfindən 6 iri ticarət mərkəzində ƏDV köşklərinin fəaliyyəti üçün yerlər müəyyənləşdirilmiş, köşklərin hazırlanması, dizaynı, zəruri avadanlıqlarla təchiz edilməsi təmin olunmuşdu. Ticarət festivalı dövründə ƏDV-nin qaytarılması məqsədilə satıcı kimi qeydiyyata alınması üçün müraciət etmiş 30 vergi ödəyicisinin 172 təsərrüfat subyektinin aidiyyəti vergi orqanında qeydiyyatdan keçməsi üçün zəruri köməklik göstərilmişdi. Festival çərçivəsində alınmış mallara görə ödənilmiş ƏDV-nin qaytarılması prosedurunu əks etdirən bukletlər hazırlanaraq ƏDV köşklərinə və satıcı kimi qeydiyyatdan keçən vergi ödəyicilərinə paylanılmışdı. Ticarət festivalı dövründə 22 min 112 elektron vergi hesab-fakturası (VHF) tərtib olunmuş, onlardan 20 min 853-ü ƏDV köşklərində təsdiq edilərək müvəkkil banklar tərəfindən 19 min 891 hesab-faktura üzrə 1.533.005,7 manat vəsait alıcılara qaytarılmışdı. Tərtib edilmiş e-VHF-dən ümumi məbləği 14.802.388,3 manat olan 20 min 183 e-VHF yerli vətəndaşlara, ümumi məbləği 1.430.963.5 manat olan 1929 e-VHF isə əcnəbilərə verilmişdi.

**Aytən NƏBİYEVA**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar departamentinin baş direktoru vergi ödəyicilərinin suallarına cavab verir

# Dövlət satınalma müqaviləsi

***Müəssisə tərəfindən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitdən ödənişlər nağd qaydada həyata keçirilə bilərmi?***

Azərbaycan Respublikasının «Nağdsız hesablaşmalar haqqında» Qanununun 3.4.7-ci maddəsinə əsasən, müəssisə tərəfindən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin istifadəsi (xərclənməsi) yalnız nağdsız qaydada həyata keçirilməlidir.

Vergi Məcəlləsinin 58.7-1.1-ci maddəsinə əsasən, adıçəkilən Qanunun 3.4.7-ci maddələrinin tələblərinin pozulmasına görə ödənişi həyata keçirən vergi ödəyicisinə aparılan əməliyyatın ümumi məbləğinin təqvim ili ərzində belə hala birinci dəfə yol verdikdə 10 faizi, ikinci dəfə yol verdikdə 20 faizi, üç və daha çox dəfə yol verdikdə isə 40 faizi həcmində maliyyə sanksiyası tətbiq edilir.

**Qeyd olunanlara əsasən:**

Müəssisə tərəfindən dövlət satınalma müqaviləsi üzrə əldə olunan vəsaitin xərclənməsi yalnız nağdsız qaydada həyata keçirilir.

# «ASAN xidmət indeksi» üzrə qiymətləndirmənin nəticələri açıqlanıb

## *Vergilər Nazirliyinin həyata keçirdiyi e-xidmətlər yenə də ən yaxşılar arasında yer alıb*

**Bu günlərdə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və ADA Universitetinin birgə təşkilatçılığı ilə «ASAN xidmət indeksi üzrə qiymətləndirmənin nəticələri və tətbiq olunan yeniliklər»ə həsr olunmuş təqdimat mərasimi keçirilib.**

Tədbirdə çıxış edən Dövlət Agentliyinin sədr müavini Ülvi Mehdiyev bildirib ki, dövlət xidmətlərinin «ASAN xidmət indeksi»ni təşkil edən parametrlər üzrə 2016-2017-ci illər ərzində 10 mərkəzi və 13 yerli icra hakimiyyəti orqanının 412 dövlət xidməti qiymətləndirilib. Mərkəzi icra hakimiyyəti orqanları üzrə 178, yerli icra hakimiyyəti orqanları üzrə isə 234 xidmətin qiymətləndirilməsi aparılıb. Dövlət xidmətləri barədə ictimaiyyətin birdən çox üsulla məlumatlandırılması, xidmətin elektronlaşdırılması, xidmətin qısa müddətə göstərilmə imkanlarının olması, vətəndaşdan sənəd tələb edilmədən mövcud informasiya sistemlərindən inteqrasiya üsulu ilə əldə edilməsi, xidməti həyata keçirən məmurların nəzakətliliyi, şikayətlərin qəbul və araşdırma mexanizmi, habelə vətəndaşların xidmət barədə rəylərinin öyrənilməsi «ASAN xidmət» indeksinin əsas amillərindəndir. Qiymətləndirmənin keçirilməsində əsas məqsəd dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi, xidmətlərin göstərilməsində təkrarlığın aradan qaldırılması və yeni növ xidmətlərin yaradılması yolu ilə bu sahədə idarəetmənin çevikliyinin təmin edilməsi, xidmətlər üzrə təhlil və proqnozlaşdırma imkanlarının artırılmasıdır.

Sonra Dövlət Agentliyinin Hüquqi təminat şöbəsinin müdiri İlhamə Qədimova «ASAN xidmət indeksi» üzrə təqdimatla çıxış edib, iştirakçılara «ASAN xidmət indeksi» altsistemi, qiymətləndirmə mexanizmi, görülən işlər, qiymətləndirilmiş dövlət xidmətləri və yekun nəticələr barədə ətraflı məlumat verib. ADA Universitetinin prorektoru Fariz İsmayılzadə isə öz çıxışında bildirib ki, dövlət xidmətlərinin qiymətləndirilməsi üzrə təmsil etdiyi tədris müəssisəsi Dövlət Agentliyi ilə sıx əməkdaşlıq edir və bundan sonra da bu istiqamət üzrə mövcud əməkdaşlıq davam etdiriləcək.

Tədbirin sonunda qiymətləndirmənin nəticələri açıqlanıb: mərkəzi icra hakimiyyəti orqanları üzrə ən yüksək nəticə göstərmiş 10 xidmət içərisində Vergilər Nazirliyinin 4 elektron xidməti - Vahid depozit hesabı vasitəsilə ƏDV üzrə elektron ödənişlərin və əvəzləşmələrin aparılması; elektron vergi hesab-fakturasının qəbulu; müraciətlərin, sorğuların və məktubların icrasının müraciət edənlər tərəfindən onlayn izlənilməsi; Çağrı Mərkəzi vasitəsilə «Sadələşdirilmiş verginin bəyannaməsi»nin qəbulu və Kommersiya hüquqi şəxsin adının unikallığının yoxlanılması ön pillələrdə qərarlaşıb.

Xatırladaq ki, «Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında» Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 sentyabr tarixli fərmanına əsasən, dövlət xidmətləri haqqında məlumatların vahid mənbədə toplanması və sistemləşdirilməsi məqsədilə Dövlət Xidmətlərinin Elektron Reyestri yaradılıb və vətəndaşların istifadəsinə verilib.




Mərkəzi icra hakimiyyəti orqanları üzrə ən yüksək nəticə göstərmiş 10 xidmət içərisində Vergilər Nazirliyinin 4 elektron xidməti ön pillələrdə qərarlaşıb

**Fəxriyyə İKRAMQIZI**

# Emal sənayesində rəqabət qabiliyyəti artacaq

## *Avropa İttifaqı ilə birlikdə yeni layihəyə başlanılıb*

Azərbaycan hökuməti Avropa İttifaqı (Aİ) ilə birgə «Azərbaycan Respublikasında əsas qeyri-neft sənaye sahələrinin rəqabət qabiliyyətinin artırılması» layihəsinin icrasına start verib. Aİ-nin Azərbaycandakı nümayəndəliyinin əməkdaşı Jeroen Villems bildirib ki, layihənin məqsədi Azərbaycan Respublikasında emal sənayesi sahələrinin rəqabət qabiliyyətinin artırılmasına və dövlət-özəl sektor əməkdaşlığının gücləndirilməsinə dəstək göstərməkdir. Layihədə emal sənayesinin bir sıra sahələrində ixtisaslaşmış biznes assosiasiyalarının yaradılması, emal sənayesinin pilot sektorları ilə bağlı ilkin iqtisadi əsaslandırmanın həyata keçirilməsi nəzərdə tutulur.

İqtisadiyyat nazirinin müavini Niyazi Səfərovun sözlərinə görə, son illərdə ölkədə həyata keçirilən islahatların mühüm istiqamətlərindən biri qeyri-neft sənayesi məhsulları istehsalı və ixracının artırılması, yeni bazarlara çıxışının təmin olunmasıdır. Dövlət bu istiqamətdə həm qanunvericiliyin təkmilləşdirilməsi, biznes və investisiya mühitinin yaxşılaşdırılması, həm də müxtəlif maliyyə və texniki dəstək mexanizmləri həyata keçirir. Aparılan sənayeləşmə siyasəti nəticəsində müasir texnologiyalara əsaslanan yüzlərlə sənaye müəssisəsi fəaliyyətə başlayıb, yeni rəqabətqabiliyyətli və ixracyönümlü, innovativ sənaye sahələri yaradılıb, tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artıb, idxaldan asılılıq azalıb, ixrac potensialı yüksəlib. Qeyri-neft sənayesinin inkişafına dair tədbirlər planının icrası sayəsində 2017-ci ilin birinci yarısında ölkədə 20-dən artıq sənaye müəssisəsi açılıb. Onların sırasında tikinti materialları, kağız və karton, tekstil, rezin və plastmas məmulatlarının, qida məhsullarının istehsalı müəssisələri var. Bununla yanaşı, mövcud sənaye müəssisələrinin də istehsal gücü genişləndirilib.

2017-ci ilin ilk 8 ayı ərzində Azərbaycanın sənaye sektorunda 24,8 milyard manatlıq sənaye məhsulu istehsal edilib. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 4,3% artıb. Qeyri-neft sənayesində yeyinti məhsulları və içkilərin istehsalı 30%, toxuculuq sənayesi məhsullarının istehsalı 98,5%, geyim istehsalı 49%, tikinti materiallarının istehsalı 38,3%, kompüter və elektron məhsulların istehsalı 57,6%, maşın və avadanlıqların istehsalı 19,1% artıb. Həmin məhsulların 30%-dən çoxu xarici ölkələrə ixrac olunub. N.Səfərov qeyd edib ki, icrasına başlanılan yeni layihə də bu siyasətin tərkib hissəsi olmaqla, ölkəmizdə sənayenin inkişafına dəstək məqsədi daşıyır.

Qeyri-neft sənayesi məhsullarının istehsalı və ixracının artmasında vergi və gömrük güzəştləri, qeyri-neft ixracının stimullaşdırılması, investisiyaların təşviqinə dair yürüdülən siyasət öz mühüm təsirini göstərməkdədir. Qeyi-neft sənayesi sektoruna xarici investorları cəlb etmək məqsədilə müxtəlif stimullaşdırıcı addımlar atılıb, vergi-gömrük, investisiya və digər güzəştlərin tətbiqi sayəsində xarici investorların, beynəlxalq maliyyə təşkilatlarının bu sahəyə marağı artıb. Dünya Bankı Balaxanı texnoparkı layihəsinə 47 milyon dollar investisiya qoymaq üçün Azərbaycan hökuməti ilə saziş imzalayıb. Avropa Yenidənqurma və İnkişaf Bankı (AYİB) yüksək texnologiyalar və sənaye parklarına investisiyalar yatırmaq üçün hökumətlə razılıq əldə edib. Cənubi Koreya, Sinqapur, Yaponiya, Türkiyə və digər ölkələrin investorları Azərbaycanda mineral və spirtli içkilər, tikinti, maşınqayırma və avadanlıqlar, emal, mədənçıxarma sənayesinə sərmayə qoymaq niyyətindədir.

### Qeyri-neft sənayesinin inkişafına müsbət təsir edən əsas amillərdən biri də vergi siyasətinin real iqtisadi tələblərlə uzlaşdırılmasıdır

Qeyri-neft sənayesinin inkişafına müsbət təsir edən əsas amillərdən biri də vergi siyasətinin real iqtisadi tələblərlə uzlaşdırılmasıdır. 2017-ci il yanvarın 1-dən qüvvəyə minmiş Vergi Məcəlləsinə əlavə və dəyişikliklərlə bağlı qanunun icrası regonlarda sənaye sektoru üzrə çalışan sahibkarlıq subyektlərinin fəaliyyətinin genişləndirilməsinə, onların yeni investisiya layihələrinin icrasına başlamasına müsbət təsir göstərir. Stimullaşdırıcı vergi siyasətinin tətbiqi qeyri-neft sənayesində istehsalın canlanmasına və yeni iş yerlərinin yaranmasına yönəldilib.

**E.CƏFƏRLİ**

# Yeni şəxsiyyət vəsiqələrində vətəndaşın e-imzası olacaq

**Nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə KİV-ə açıqlamasında bildirib ki, yaxın müddətdə hər bir vətəndaşa təqdim ediləcək yeni nəsil şəxsiyyət vəsiqəsi «elektron imza» sertifikatı ilə təmin olunacaq. Bununla da yeni vəsiqələr şəxsiyyəti identifikasiya etməklə yanaşı, elektron sənədlərin imzalanmasında da istifadə olunacaq.**

Dövlət başçısının «Azərbaycan Respublikasında yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında» sərəncamına əsasən, bəzi qanunvericilik aktlarına dəyişikliklər edilib və təkliflər verilib. Həmin təkliflərin əsasında hazırlanmış layihənin icrası davam etdirilir. Azərbaycanlı mütəxəssislərin İsveçrənin «TRÜB» şirkəti ilə birgə həyata keçirdikləri layihə çərçivəsində yeni şəxsiyyət vəsiqələrinə elektron imza və şəxsiyyətin identifikasiyası əlavə olunacaq.

Yeni nəsil şəxsiyyət vəsiqələri bir çox texniki üstünlüklərə malikdir. Burada biometrik texnologiyaların elementləri tətbiq olunacaq. Yeni vəsiqə ilə elektron sənədləri də imzalamaq mümkün olacaq. Ən maraqlı yeniliklərdən biri də odur ki, şəxsiyyət vəsiqəsindən nağdsız hesablaşmaların aparılması və elektron ticarət üçün istifadə ediləcək. Kartların elektron daşıyıcıları elektron ticarət və digər qeyri-nağd əməliyyatlar həyata keçirməyə imkan verəcək. Hazırda bu mexanizmin yaradılması üçün müvafiq qurumlar bir sıra texnoloji məsələlər üzərində çalışırlar.

Yeni vəsiqələrlə Azərbaycandan xaricə gedib-gəlmək imkanı da yaradılacaq. Dövlət başçısının sərəncamında DİN-ə və DSX-yə tapşırılıb ki, nəzarət-buraxılış məntəqələrinin proqram-texniki təminatı yeniliyə uyğunlaşdırılsın.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin məlumatında bildirilir ki, yeni şəxsiyyət vəsiqələrinin tətbiqi elektron xidmətlərin keyfiyyətinin yüksəlməsini, xidmətlərə çəkilən dövlət xərclərinin azalmasını, yeni elektron xidmət növlərinin yaranmasını, bürokratik əngəllərin aradan qaldırılmasını, nağdsız hesablaşmaların artmasını təmin edəcək. Nazirliyin Sertifikat Xidmətləri Mərkəzinin müdiri Arif Mailov qeyd edib ki, yeni nəsil şəxsiyyət vəsiqələri təhlükəsizlik nöqteyi-nəzərindən köhnə vəsiqələrdən fərqlənəcək və daha üstün olacaq. Bu vəsiqələrə vətəndaşın yaşayış yeri üzrə qeydiyyatı, ailə vəziyyəti haqqında məlumatlar, habelə vəsiqə sahibinin biometrik fotosu və digər fərdi göstəriciləri özündə birləşdirən elektron daşıyıcı (çip) yerləşdiriləcəkdir. Vəsiqələrdə vətəndaşın biometrik texnologiyalar əsasında bütün əlamətləri və fizioloji xüsusiyyətləri təsvir olunacaq, barmaq izi, gözün torlu və quzehli qişaları, sifət şəkli, əlin həndəsəsi, ovucun şəkli, bədənin qoxusu, qulaqların forması, termoqramlar, DNT, səs, əl imzası, dodaqların hərəkəti, klaviatura xətti, yerişi və s. xüsusi cizgilərlə öz əksini tapacaq. Yeni vəsiqələr digər ölkələrin müvafiq orqanları ilə biometrik informasiya mübadiləsinin tənzimlənməsində də müstəsna əhəmiyyət kəsb edəcək.

Şəxsiyyət vəsiqələri «Elektron hökumət» portalından yararlanmaq üçün də əhəmiyyətlidir. Sənədin köməyi ilə portal üzərindən «vahid pəncərə» prinsipinin reallaşdırılması nəzərdə tutulur.




Yeni şəxsiyyət vəsiqələrinin tətbiqi elektron xidmətlərin keyfiyyətinin yüksəlməsini, xidmətlərə çəkilən dövlət xərclərinin azalmasını, yeni elektron xidmət növlərinin yaranmasını, bürokratik əngəllərin aradan qaldırılmasını, nağdsız hesablaşmaların artmasını təmin edəcək

**ELBRUS**

## ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2014-cü ilin oktyabr və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2017-ci ilin oktyabr və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə

www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az

internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi

# Azərbaycanda iqtisadi islahatlar:
## *nailiyyətlər və perspektivlər*

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası ilə birgə «Azərbaycanda iqtisadi islahatlar: nailiyyətlər və perspektivlər» mövzusunda «dəyirmi masa» təşkil edib.**

Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov «Azərbaycanda iqtisadi islahatlar və kadr potensialının formalaşdırılması: proses və nəticə» mövzusunda məruzə ilə çıxış edib. Bildirib ki, bu ilin martında BMT-nin, may ayında isə Dünya Bankının dərc etdirdiyi hesabatlarda əksini tapan innovativ insan potensialına əsaslanan davamlı inkişaf göstəricilərinə görə Azərbaycan hazırda liderlər sırasındadır. Bu gün ölkəmizin qazandığı hər bir uğurun təməlində ulu öndər Heydər Əliyevin müəllifi olduğu Azərbaycanın hərtərəfli inkişafına və tərəqqisinə hesablanmış inkişaf strategiyası dayanır. Azərbaycanın innovativ inkişaf strategiyasının reallaşdırılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın xüsusi rolu var.

Dövlət İdarəçilik Akademiyasında bakalavr, magistr və doktorantlarla yanaşı, dövlət qulluqçularının hazırlanmasının həyata keçirildiyini deyən rektor diqqətə çatdırıb ki, ötən il 1600-dən çox dövlət qulluqçusu akademiyada təlim keçib: «Bu təlimlərin keçirilməsində akademiyanın professor-müəllim heyəti ilə yanaşı, Prezident Administrasiyasının yüksək rütbəli dövlət məmurları, nazirlər, dövlət komitələrinin sədrləri, görkəmli alim və ziyalılar iştirak edirlər. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi ilə birgə dövlət qulluqçuları üçün yeni təlimlər təşkil edəcəyik. Bu, olduqca vacibdir. Hesab edirəm ki, Dövlət İdarəçilik Akademiyası Azərbaycanın kadr potensialının möhkəmləndirilməsində müstəsna rol oynayır».

Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə son illər ölkəmizdə həyata keçirilən iqtisadi islahatların, yenidənqurma və quruculuq işlərinin ciddi nəticələr verdiyini qeyd edib. Vurğulayıb ki, ölkəmizdə iqtisadi islahatların yeni mərhələsinin başlanması ilə əlaqədar mühüm tədbirlər həyata keçirilir. «Bu gün artıq 2050-ci ili proqnozlaşdırarkən neft sahəsi ilə yanaşı, aqrar sektorun, tikintinin, infrastruktur layihələrinin də həyata keçirilməsini planlaşdıra bilərik. Azərbaycanda iqtisadi islahatların dərinləşməsi möhkəm təməl üzərində qurulur. Məşğulluğun dinamikasında artım, regionların inkişafı, digər strateji proqramların uğurla həyata keçirilməsi iqtisadi islahatların dərinləşməsi üçün möhkəm baza yaradır», - deyə komitə sədri bildirib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı diqqətə çatdırıb ki, Azərbaycan iqtisadiyyatında islahatlar bəhrəsini verməkdədir. «İslahatların bu il ən böyük uğurları kimi tədiyyə balansında müsbət dəyişiklik, manatın sabitliyi, strateji valyuta ehtiyatlarının artması, həmçinin biznesin və ev təsərrüfatlarının göz-



Dünya Bankının dərc etdirdiyi hesabatlarda əksini tapan innovativ insan potensialına əsaslanan davamlı inkişaf göstəricilərinə görə Azərbaycan hazırda liderlər sırasındadır

ləntilərinin müsbətə doğru dəyişməsi qeyd edilə bilər», - deyə V.Qasımlı bildirib.

İcraçı direktor deyib ki, «Doing Business» indeksinin 9 alt indikatoru üzrə islahatlar davam edəcək. «Doing Business» hesabatı üzrə Azərbaycan Respublikasının mövqeyinin yaxşılaşdırılması ilə bağlı 2017-2018-ci illər üzrə Tədbirlər Planı çərçivəsində atılacaq addımlar sırasında əsasən tikintiyə icazələrin verilməsi, elektrik təchizatı şəbəkələrinə qoşulma, əmlakın qeydiyyatı, kreditlərin alınması, kiçik investorların maraqlarının qorunması, vergilərin ödənişi, sərhəddə ticarət, müqavilələrin icrasının təmin edilməsi, müəssisələrin bağlanması istiqamətində islahat tədbirlərinə xüsusi yer verilib.

«Kredit Zəmanət Fondun»dan danışan V.Qasımlı bildirib ki, fondun yaradılması ilə kredit resurslarına çıxış asanlaşacaq və iqtisadiyyatın maliyyələşməsi artacaq. Ümumilikdə strateji yol xəritələrinin icrası iqtisadiyyatın yeni inkişaf mərhələsinə öz müsbət təsirini göstərir.

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının vitse-prezidenti Vüqar Zeynalov ölkəmizdə sahibkarlığın inkişafına göstərilən dövlət dəstəyindən danışıb. Qeyd edib ki, Azərbaycanda ardıcıl həyata keçirilən islahatlar nəticəsində bütün istiqamətlərdə olduğu kimi, sosial-iqtisadi sahədə də uğurlu nəticələr əldə edilib, sahibkarlığın inkişafı istiqamətində bir sıra önəmli addımlar atılıb ki, bu da sağlam biznes mühitinin daha da əlverişli olmasına real şərait yaradıb.

Qeyd edək ki, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi aparılan islahat prosesinin daha geniş ictimaiyyətə çatdırılması, birbaşa dialoqların təşkil olunması, məlumatlılığın və maariflənmənin təmin edilməsi, dövlət-özəl dialoqunun güclənməsinə töhfə vermək məqsədilə bu mövzuda silsilə tədbirlərin keçirilməsini davam etdirəcək.

**F.İKRAMQIZI**

## BİR CÜMLƏ - BİR XƏBƏR

«Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi»ndə müəyyən edilmiş tədbirlərin 32 faizi icra olunub.

Oktyabrın 18-21-də Bakı Ekspo Mərkəzində Xəzəryanı regionun tikinti sektoruna həsr olunmuş irimiqyaslı tədbir - XXIII Azərbaycan Beynəlxalq İnşaat «WorldBuild Baku 2017» sərgisi işə başlayacaq.

Yaponiyanın populyar «Bay FM 78.0» radiosunda oktyabrın 27-28-də Bakı Biznes Mərkəzində təşkil ediləcək «Japan Food Expo-2017» sərgisi (Yaponiya qida məhsulları sərgisi-2017) barədə xüsusi veriliş yayımlanıb.

Pakistanın paytaxtı İslamabad şəhərində təşkil olunmuş «Dünya Turizm Konfransı-2017» tədbirində Azərbaycanın bu ölkədəki səfirliyi respublikamızın turizm imkanları barədə geniş təqdimat keçirib.

Gənc sahibkar və menecerlərdən ibarət bir qrup Azərbaycan vətəndaşı bu il noyabrın 13-dən dekabrın 8-dək Almaniyanın Drezden şəhərində tədris və təcrübə keçəcək.

Bu il oktyabrın 7-dən 11-dək Azərbaycan məhsulları növbəti dəfə vahid ölkə stendi ilə Almaniyanın Köln şəhərində keçiriləcək «ANUGA» Beynəlxalq Ərzaq Sərgisində nümayiş etdiriləcək.

# Korporativ kartlardan istifadə qaydaları

***Vergi qanunvericiliyinə edilən son dəyişikliklər nəticəsində xarici qeyri-rezident şirkətlərdən iş və xidmətlərin alınması zamanı ƏDV vergisinin tətbiqi nəzərdə tutulub. Bir çox şirkətlər bu tip iş və xidmətlərə görə, məsələn, sosial şəbəkələrdə reklam məqsədi üçün edilən ödənişləri korporativ kartlar (biznes kartları) vasitəsilə həyata keçirirlər. Bu zaman belə bir sual meydana çıxır: şirkət bu xidmətləri və işləri korporativ kartla aldıqda, bununla əlaqədar vergi bank tərəfindən birbaşa olaraq hesabdan tutulmalıdır, yoxsa şirkət bu fəaliyyəti bəyan etməklə vergini büdcəyə özü köçürməlidir?***

Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin «Sual-cavab» bölməsindəki şərhə əsasən, ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmayan qeyri-rezidentə elektron ticarət qaydasında işlərin və xidmətlərin təqdim edilməsinə görə aparılan ödənişlərdən (məsələn, korporativ kartla «facebook» sosial şəbəkəsində pullu reklam üçün ödəniş edərkən) və Azərbaycan Respublikasının hüdudlarından kənarda elektron qaydada təşkil olunan lotereyaların, digər yarışların və müsabiqələrin iştirakçısının ödədiyi məbləğdən və daxil olan uduşdan vergi bank tərəfindən birbaşa olaraq o zaman tutula bilər ki, bu verginin ödəyicisi vergi orqanlarında uçotda olmayan şəxs olsun. Başqa sözlə, korporativ kart vergi orqanlarında uçotda olan şəxslərə aid olduqda, bu fəaliyyətlə bağlı vergini iş və xidməti alan şirkət özü ödəməlidir.

Korporativ kart hüquqi şəxsin və fərdi sahibkarın ezamiyyə, nümayəndəlik və digər xərclərinin, habelə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişlərin ödənilməsində istifadə olunur

«Elektron pul kisəsi»nə vəsait köçürülən zaman isə vəziyyət fərqlidir. Korporativ kart vasitəsilə qeyri-rezident şəxslərə məxsus elektron pul kisəsində yaradılan hesaba pul köçürülərkən 10%-lik vergi bank tərəfindən, kartın məxsus olduğu rezident şəxsə fərq qoyulmadan, ödəmə mənbəyindən tutulur.

AMEA-nın İqtisadiyyat İnstitutunun doktorantı, bank eksperti Ramin Bayramov mövzu ilə bağlı sualımızı cavablandıraraq bildirdi ki, ümumiyyətlə, korporativ kartların istifadə təyinatı və məqsədləri Mərkəzi Bankın «Ödəniş kartlarının emissiyası və istifadə Qaydaları» ilə tənzimlənir. Həmin qaydalarda da əks olunur ki, hüquqi şəxsə və ya fərdi sahibkara bir neçə korporativ kart verilir: «Korporativ kart hüquqi şəxsin və fərdi sahibkarın ezamiyyə, nümayəndəlik və digər xərclərinin, habelə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişlərin ödənilməsində istifadə olunur. Tutaq ki, bir müəssisə 10 ədəd korporativ kart alır. Ezamiyyətdə olan işçilər ezamiyyə xərclərini ödəmək üçün korporativ kartdan istifadə edə bilirlər. Burada məqsəd işçilərin xərclərinin təyinatına nəzarət etməkdir. Yəni bu, ezamiyyətdə olan işçilərin ezamiyyə üçün ayrılan xərclərinin istifadəsini nəzarətdə saxlamağa imkan verir. Eyni zamanda, «Nağdsız hesablaşmalar haqqında» Qanununa görə, icbari sığorta haqları mütləq qaydada nağdsız həyata keçirilməlidir. Bu məqsədlə də korporativ kartlar vasitəsilə dövlət büdcəsinə və büdcədənkənar dövlət fondlarına icbari ödənişləri həyata keçirmək mümkündür. Sual oluna bilər ki, korporativ kartlardan hansı məqsədlər üçün istifadə oluna bilməz? Cavab çox sadədir: korporativ kart dividend, əməkhaqqı, pensiya, təqaüdlərin ödənilməsi və digər sosial xarakterli ödənişlər üçün istifadə edilə bilməz».

**FƏXRİYYƏ**

# Rəqəmsal ödənişlərin genişləndirilməsinə dair yeni proqram

Mərkəzi Bank (MB) «Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri»ndə maliyyə xidmətləri ilə bağlı müəyyən olunmuş hədəfləri özündə əks etdirən tədbirlər planı hazırlayıb. Sənəddə bir neçə mühüm prioritetə xüsusi yer verilib. Əsas hədəflərdən biri effektiv pul siyasəti rejiminin tətbiq edilməsi, dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılmasıdır. MB bu istiqamətdə digər qurumlarla birgə koordinasiyanı artırmaqdadır. Effektiv pul siyasəti rejiminin tətbiqi iqtisadiyyatda neftin qiymətinin kəskin aşağı düşməsi ilə başlayan yenidənbalanslaşma prosesləri fonunda pul-məzənnə siyasətinin yeni çağırışlara uyğun olaraq sərtləşdirilməsi ilə bağlıdır. Mərkəzi Bank həmin hədəfə uyğun olaraq konservativ pul strategiyası çərçivəsində pul bazasının artım kanallarına nəzarət edəcək.

Mərkəzi Bankın İdarə Heyətinin sədr müavini Alim Quliyevin sözlərinə görə, digər əsas hədəflər dinamik və sağlam institutlardan ibarət maliyyə sisteminin formalaşdırılmasıdır ki, bu istiqamətdə də cari ildən başlayaraq bir sıra tədbirlər həyata keçirilməkdədir. Həmin tədbirlər maliyyə bazarlarında rəqəmsallaşmanın, bazar iştirakçılarının bilik və bacarıqlarının artırılmasına yönəldilib. Əsas məqsəd biznes subyektlərinin maliyyə resurslarına səmərəli çıxışının təmin edilməsi və iqtisadiyyatda maliyyə inklüzivliyinin artırılmasıdır. Rəqəmsal ödənişlərin genişləndirilməsinə xüsusi önəm verən MB bu sahədə aidiyyəti qurumlarla və xarici şirkətlərlə əməkdaşlığı gücləndirib. Hazırda nüfuzlu beynəlxalq ödəniş şirkəti olan «MasterCard»la əməkdaşlığın yeni prioritetləri müəyyənləşdirilib və layihənin icrasına başlanılıb. Bununla yanaşı, rəqəmsal iqtisadiyyatın formalaşdırılması, rəqəmsal ödənişlərin genişləndirilməsi istiqamətində 3 illik dövrü əhatə edən geniş fəaliyyət proqramı hazırlanıb. Sənəddə Maliyyə Bazarlarına Nəzarət Palatası, Rabitə, Nəqliyyat və Yüksək Texnologiyalar Nazirliyi, Vergilər Nazirliyi, ölkədə fəaliyyət göstərən mobil operatorlar və ödəniş sistemlərinin fəaliyyətində iştirak edən digər subyektlərin rəqəmsal ödənişlərin artırılmasına dair müvafiq təklifləri də nəzərə alınıb. Yaxın vaxtlarda təsdiq olunacaq yeni proqram çərçivəsində rəqəmsal iqtisadiyyata keçidlə bağlı infrastrukturun gücləndirilməsi, effektiv tənzimləmə metodlarının tətbiqi, ödəniş sistemlərinin texniki inkişafı, ictimaiyyətin rə-



qəmsal əməliyyatlar barədə məlumatlılıq səviyyəsinin artırılması istiqamətində də tədbirlər həyata keçirəcək.

Mərkəzi Bank maliyyə sektorunda daha çevik tənzimlənmənin həyata keçirilməsi və faiz dərəcəsi alətinin işlək qabiliyyətinin yüksəldilməsi məqsədilə xüsusi monetar islahatlar proqramı da hazırlayıb. MB hesab edir ki, makroiqtisadi sabitliyin təmin olunması, ilk növbədə, monetar siyasətin büdcə-vergi siyasəti ilə effektiv əlaqələndirilməsini, bütövlükdə isə iqtisadiyyatın, tədiyyə balansının və valyuta bazarının tarazlaşdırılmasına, bu əsasda üzən məzənnəyə tam və effektiv keçidə imkan verən kompleks təbdirlərin görülməsini zəruri edir. Yeni proqram məhz belə bir manevrin həyata keçirilməsinə yönəldilib. Hazırda Maliyyə Sabitliyi Şurası tərəfindən müzakirə olunan proqramın yaxın vaxtlarda qəbulundan sonra ölkədə effektiv pul bazarının formalaşdırılması tam mümkün olacaq. Strateji plana əsasən, 2020-ci ilədək maliyyə institutları, xüsusən də banklar sağlamlaşdırılacaq, likvidlik və kapitallaşma problemləri həll ediləcək, qeyri-işlək aktivlərin restrukturizasiyası üzrə tədbirlər həyata keçiriləcəkdir. Maliyyə sistemi daha mütərəqqi risklərin idarə edilməsi proseslərinə istiqamətləndiriləcək, maliyyə xidmətlərində və hesabatlılıqda şəffaflıq artırılacaq, müştəriyönümlü xidmətlər və rəqəmsallaşmanı dəstəkləyən nəzarət mexanizmi formalaşdırılacaqdır.

**ELBRUS**

## ELAN

Cari ilin sentyabr ayından dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın yeni tarifinin tətbiqinə başlanılmışdır.

Dövlət müəssisələrinin büdcədən maliyyələşdirilməsi proseduru və alışların əvvəlcədən planlaşdırılması nəzərə alınaraq, dövlət qulluqçuları və yerli özünüidarəetmə orqanlarının nümayəndələri üçün «Asan İmza» elektron rəqəmsal imzanın əldə edilməsi və istismarı prosesini asanlaşdırmaq məqsədilə yeni tarif müəyyən olunmuşdur. Tarif «Asan İmza» dövlət və ya bələdiyyə sertifikatının istifadəsi müddətində (3 il ərzində) başqa əlavə xərclər (aylıq abunə haqqı, aparılmış hər əməliyyata görə ödəniş) olmadan 58 manat həcmində birdəfəlik ödənişi nəzərdə tutur.

«ASAN İmza» ilə əlaqədar əlavə sualınız yaranarsa, **Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə**, www.taxes.gov.az və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

VERGİLƏR NAZİRLİYİ

# Daşınmaz əmlak sahəsində yeni e-xidmətlər

Son vaxtlar ölkəmizdə daşınmaz əmlakın qeydiyyatı sahəsində bir sıra yeniliklər tətbiq edilir. Qeydiyyat prosedurlarının sadələşdirilməsi, qabaqcadan qeydiyyat mexanizminin fəaliyyəti, elektron çıxarışın verilməsi vətəndaşlar üçün rahatlıq yaradır. Vətəndaşların bilavasitə ünvanlarında keçirilən «Kütləvi çıxarış» və hüquqi yardım kampaniyası, mobil xidmətlər, əmlakın qeydiyyatı kalkulyatoru sosial səciyyə daşıyır.

Daşınmaz əmlak sahəsində vətəndaşların rahatlığını təmin etmək məqsədilə bu günlərdə daha iki elektron xidmət istifadəyə verilib: «Çoxmərtəbəli yaşayış binasında daşınmaz əmlakın dövlət reyestrində çıxarış almış mənzillərin mövcudluğu barədə məlumatların verilməsi» və «Mənzillərin alğı-satqı müqavilələri üzrə satış qiymətləri barədə məlumatların verilməsi». Artıq hər iki xidmət «Elektron hökumət» portalına inteqrasiya edilib.

«Çoxmərtəbəli yaşayış binasında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış almış mənzillərin mövcudluğu barədə məlumatların verilməsi» elektron xidmətinin köməyi ilə istənilən şəxs onu maraqlandıran yeni tikilidəki mənzillərə mülkiyyət hüququnu təsdiqləyən çıxarış veriləcəyini əvvəlcədən öyrənə biləcək. Tam avtomatlaşdırılmış xidmət nəticəsində tələb olunan məlumat dərhal təqdim ediləcək. Xidmət vasitəsilə vətəndaş əvvəlcədən alacağı mənzilə çıxarışın verilməsi üçün ilkin hüquqi sənədlərin qaydasında olub-olmadığını elektron şəkildə, real vaxt rejimində öyrənə biləcək. Bu isə istər paytaxtda, istərsə də regionlarda yaşayan vətəndaşların mənzilinin daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alınmasına, onların etibarlı və leqal əmlak sahibi olmasına kömək edir. Bu xidmət leqal əmlak sahiblərinin sayının artmasına, mövcud risklərin minimuma endirilməsinə, daşınmaz əmlak sahibləri arasında yarana biləcək problemlərin aradan qaldırılmasına şərait yaradacaq. Eyni zamanda, mənzil alarkən müvafiq qurumlara əlavə müraciətlərə ehtiyac qalmayacaq, vətəndaş-məmur münasibətləri minimuma endiriləcək, sənədlərin tərtibatında çeviklik artacaq. Bundan əlavə, mənzillər üzərində ipoteka, girov, alğı-satqı kimi iqtisadi əməliyyatların yerinə yetirilməsi xeyli sadələşəcək.

**Mənzil alarkən müvafiq qurumlara əlavə müraciətlərə ehtiyac qalmayacaq, vətəndaş-məmur münasibətləri minimuma endiriləcək, sənədlərin tərtibatında çeviklik artacaq**

«Mənzillərin alğı-satqı müqavilələri üzrə satış qiymətləri barədə məlumatların verilməsi» xidməti də mənzil sahibləri və alıcıları üçün mühüm əhəmiyyət daşıyır. Bu xidmətin köməyi ilə ev sahibi və ya alıcı əldə etmək istədikləri ərazidə evlərin təqribi bazar qiymətini elektron qaydada real vaxt rejimində öyrənə biləcək. Nəticədə qiymətlə bağlı vətəndaşın səhv yönləndirilməsi kimi problemlər minumuma enəcək. Bazar qiymətləri barədə düzgün informasiya alan vətəndaşlar mənzil almaq üçün əlində olan maliyyə resurslarını planlı şəkildə necə xərcləyəcəkləri̇nə rahatlıqla qərar verə biləcəklər.

**AYTƏN**

# Aqrar sektordan gözləntilər böyükdür

2017-ci ilin yanvar-avqust ayları üzrə Azərbaycanda kənd təsərrüfatı sahəsində ümumi məhsulun dəyəri faktiki qiymətlərlə 4,431 mlrd. manat təşkil edib. Dövlət Statistika Komitəsindən verilən məlumata görə, bunun 2,232 mlrd. manatı heyvandarlıq, 2,199 mlrd. manatı isə bitkiçilik məhsullarının payına düşüb. Ötən ilin yanvar-avqust ayları ilə müqayisədə kənd təsərrüfatının ümumi məhsulu 1,7%, o cümlədən heyvandarlıq məhsullarının istehsalı 2,5%, bitkiçilik məhsullarının istehsalı isə 0,9% artıb.

İqtisadçı ekspert Fikrət Yusifov bildirir ki, bu gün Azərbaycan hökuməti aqrar sektorun sürətli inkişafını təmin edəcək bütün zəruri tədbirləri görür. Dövlətin bu sahədən gözləntiləri kifayət qədər yüksəkdir: «Son iki il ərzində Azərbaycanda strateji məhsulların - pambığın, baramanın, tütünün, fındığın və s. istehsalı sürətlə artıb. Əgər 2015-ci ildə cəmi 18 min hektarda pambıq əkilmişdisə, 2016-cı ildə bu rəqəm 51 min hektara çatıb, cari ildə isə 136 min hektar sahədə pambıq əkilib. Əgər 2015-ci ildə 35 min ton, keçən il təxminən 90 min tona yaxın pambıq tədarük edilibsə, cari ildə bu rəqəmin 270 min tona çatdırılacağı gözlənilir».

F.Yusifov qeyd edib ki, iki il ərzində barama istehsalı 70 tona çatdırılıb və tezliklə bu məhsulun istehsalını 1300 tona qaldırmaq istəyirik. Bu, artıq aqrar sektorda inqilabi bir dönüşün göstəricisidir: «Dövlət hesabına bir milyon yeddi yüz min tut ağacının alınıb barama tədarük edən kənd adamlarına hədiyyə edilməsi hökumətin aqrar sektorda çalışan vətəndaşlara birbaşa yardımı deməkdir. Eyni zamanda, üzümçülüyün, tütünçülüyün, taxılçılığın, heyvandarlığın inkişaf perspektivləri də diqqət mərkəzindədir. Yeni fındıq, xurma, badam, zeytun bağlarının salınması, onların coğrafiyasının genişləndirilməsi isə bizə nəinki daxili bazarın bu məhsullara olan ehtiyacını ödəməyə imkan verəcək, həmçinin onların ixracından kifayət qədər valyuta gəlirləri də əldə edə biləcəyik».

**FƏXRİYYƏ**

## 2017-ci ilin oktyabr ayı ərzində vergi orqanına təqdim edilməli bəyannamələr və ödənilməli VERGİLƏR

**2017-ci ilin sentyabr ayına görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Əlavə dəyər vergisi bəyannaməsi,
- Aksiz bəyannaməsi,
- Yol vergisi bəyannaməsi,
- Mədən vergisi bəyannaməsi,
- Pul vəsaitlərinin nağd çıxarılmasına görə sadələşdirilmiş verginin bəyannaməsi və
- Uduşlardan (mükafatlardan) əldə edilən gəlirdən ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və təqdim olunmuş bəyannamələr üzrə hesablanmış vergilər həmin müddətdək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- **Daşınmaz əmlakın təqdim edilməsi üzrə sadələşdirilmiş verginin bəyannaməsi cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməlidir (vergi əməliyyat aparıldığı gün - 1 bank günü ərzində ödənilir).

**2017-ci ilin 3-cü rübünə görə vergi ödəyiciləri tərəfindən tədiyyəçisi olduqları**

- Sadələşdirilmiş verginin bəyannaməsi və
- Ödəmə mənbəyində tutulan vergi bəyannaməsi

**cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və rüb üzrə hesablanmış vergilər həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.

- Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi bəyannaməsi (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri istisna olmaqla) **cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış vergi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir (ƏDV və sadələşdirilmiş vergi ödəyiciləri bəyannaməni illik - növbəti ilin **yanvar ayının 31-dən gec** olmayaraq təqdim edirlər).
- Xüsusi notariusların gəlir vergisi bəyannaməsi **cari ilin oktyabr ayının 20-dən** gec olmayaraq vergi orqanına təqdim edilməli və sentyabr ayı üzrə hesablanmış gəlir vergisi həmin müddətədək tam həcmdə dövlət büdcəsinə ödənilməlidir.
- Dövlət rüsumu haqqında hesabat **cari ilin oktyabr ayının 20-dək** vergi orqanına təqdim edilməlidir; notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul edilərək 2 bank günü, xarici ölkələrdəki diplomatik nümayəndəliklərdə aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu 1 ay, digər dövlət rüsumları isə tutulduqdan sonra 1 bank günü ərzində dövlət büdcəsinə köçürülməlidir.

**Gəlir və mənfəət vergisi ödəyiciləri tərəfindən**

2017-ci ilin 3-cü rübü üzrə hesablanmış cari ödəmələr oktyabr ayının 16-dan gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

***Bəyannamələr müəyyən edilən müddətdə təqdim edilmədikdə 40 manat məbləğində maliyyə sanksiyası tətbiq edilir (VM, 57), vergilər vaxtında ödənilmədikdə isə bir ildən çox olmamaqla ötmüş hər bir gün üçün 0,1 faizi məbləğində faiz tutulur (VM, 59).***

**Hörmətli vergi ödəyiciləri, siz öz bəyannamələrinizi və hesablanmış vergiləri Vergilər Nazirliyinin İnternet Vergi İdarəsi Portalı (https://www.e-taxes.gov.az) vasitəsilə elektron qaydada da təqdim edə və ödəyə bilərsiniz. Vergi öhdəliklərinizi vaxtında yerinə yetirməyi tövsiyə edirik.**

AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

YADDAŞ

# Şadlıq evi, restoran və digər ictimai iaşə obyektlərinin sahiblərinin nəzərinə!

Azərbaycan Respublikası Vergilər Nazirliyinin 07.08.2017-ci il tarixli əmri ilə «Şadlıq evlərində, restoranlarda və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərinin göstərilməsinə görə qeydiyyatın aparılması Qaydaları» təsdiq edilmişdir. Qaydalara əsasən, şadlıq evi, restoran və digər ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxslərin «Qeydiyyatı kitabı»nın tətbiqi nəzərdə tutulmuşdur.

«Qeydiyyat kitabı»nın tətbiqinin məqsədi ictimai iaşə obyektlərində musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətlərin göstərilməsi fəaliyyəti ilə məşğul olan şəxslərin gəlirlərinin uçotunun düzgün aparılmasının, onların fəaliyyətlərinə nəzarətin təşkilindən ibarətdir.

Nəzərinizə çatdırırıq ki, ictimai iaşə obyektində aşağıda göstərilən fəaliyyətlərdən hər hansı biri olduqda, həmin obyekt «Qeydiyyat kitabı» ilə təmin olunmalıdır:

- müğənnilik və ya ansambl (qrup) formasında musiqiçilik fəaliyyəti;
- fərdi qaydada həyata keçirilən aparıcılıq, çalğıçılıq, rəqqaslıq, aşıqlıq, məzhəkəçilik və digər oxşar fəaliyyət;
- fərdi foto, audio-video xidmətləri sahəsində fəaliyyət.

İctimai iaşə obyektlərinin sahibləri «Qeydiyyat kitabı»nı fəaliyyət göstərdiyi ərazinin vergi orqanına müraciət etməklə əldə edə bilərlər. «Qeydiyyat kitabı» vergi orqanı tərəfindən nömrələnmiş və qaytanlanmış qaydada, möhürlə təsdiq olunaraq uçota aparılmaqla vergi ödəyicilərinə ödənişsiz təqdim edilir.

İctimai iaşə obyektlərinin sahibləri:

- «Qeydiyyat kitabı»nda müvafiq qeydləri yuxarıda göstərilən fəaliyyət növləri ilə məşğul olan şəxslərin çıxışına (ifasına), xidmətlərin göstərilməsinə başlamazdan əvvəl aparmalısınız;
- «Qeydiyyat kitabı»nda qeyd olunan məlumatları hər ay başa çatdıqdan sonra növbəti ayın 10-dək aşağıda göstərilən formada vergi orqanına təqdim edilməsini təmin etməlidirlər.

İctimai iaşə obyektlərinin sahibləri «Qeydiyyat kitabı»nın düzgün işlənilməsinə, təmiz və səliqəli saxlanılmasına (vərəqlərin əzilməməsi, cırılmaması, yazıların qaralanmaması və ya pozulmaması), kitabda qeyd olunan məlumatların vergi orqanına vaxtında təqdim edilməsinə görə məsuliyyət daşıyırlar.

«Qeydiyyat kitabı»ndakı məlumatlar nəzərdə tutulmuş müddətdə vergi orqanına təqdim olunmadıqda və ya məlumatların düzgün tərtib olunmadığı aşkar edildikdə, həmin sahibkar riskli vergi ödəyicisi kimi qiymətləndirilməklə onun fəaliyyəti vergi orqanı tərəfindən xüsusi nəzarətə alınaraq nəzarət tədbirləri həyata keçiriləcəkdir.

**«Qeydiyyat kitabı»nda aparılan məlumatlar əsasında hər ay vergi orqanına təqdim edilməli məlumat forması**

| s/s | Təsərrüfat subyektində (obyektində) «Qeydiyyat kitabı» tətbiq olunan vergi ödəyicisinin | | | | | Musiqi, əyləncə və digər oxşar fəaliyyət, habelə fərdi foto, audio-video xidmətləri göstərən şəxsin | | | Göstərilən xidmətin növü | Çıxış edilən tarix | Çıxışın başlandığı və qurtardığı vaxt | Xidmət göstərən şəxslərə ödənilmiş pulun məbləği | Xidmət göstərilən dövrə aid satış vergisinin ödənilməsi haqqında qəbz (var/yox) |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | Uçotda olduğu vergi orqanı | VÖEN-i | Adı | Obyektin | | Uçotda olduğu vergi orqanı | A.S.A. | VÖEN (olmadıqda - FİN) | | | | | |
| | | | | adı | kodu | | | | | | | | |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |

## Elektron qaimə-fakturanın tətbiqi barədə BİLDİRİŞ

**Hörmətli vergi ödəyiciləri!**

Sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı elektron qaimə-fakturanın verilməsi vergi ödəyicilərinin vəzifələrinə aid edilmişdir.

Mövcud qanunvericiliyə əsasən sahibkarlıq fəaliyyəti məqsədləri üçün malların (işlərin, xidmətlərin) təqdim edilməsi zamanı:

- **ƏDV-nin məqsədləri üçün qeydiyyata alınmış və vergi tutulan əməliyyatlarının həcmi ardıcıl 12 aylıq dövrün istənilən ayında (aylarında) 200.000 manatdan artıq olan ticarət və (və ya) ictimai iaşə fəaliyyəti ilə məşğul olan** vergi ödəyiciləri tərəfindən **2017-ci il 1 aprel tarixindən;**
- **bütün digər vergi ödəyiciləri** tərəfindən **2018-ci il 1 yanvar tarixindən etibarən** elektron qaimə-faktura təqdim edilməlidir.

Elektron qaimə-fakturanın tətbiqi, uçotu və istifadəsi Qaydaları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 14.03.2017-ci il tarixli 89 nömrəli Qərarı ilə müəyyən edilir.

Elektron qaimə-faktura **«Onlayn rejimdə»** Vergilər Nazirliyinin İnternet Vergi İdarəsində (www.e-taxes.gov.az) gücləndirilmiş elektron imza (o cümlədən Asan İmza) vasitəsilə elektron qaydada tərtib edilərək və ya «Lazımi proqramlar»dan istifadə edilməklə **«Oflayn rejimdə»** tərtib edildikdən və elektron imza (o cümlədən Asan İmza) vasitəsilə imzalandıqdan sonra alıcıya göndərilir.

Vergi ödəyicisinin sahibliyində olan malların alışını təsdiq edən qaimə-faktura və ya elektron qaimə-faktura və ya elektron vergi hesab-fakturasından ən azı biri olmadıqda isə alıcıya təqvim ili ərzində belə hala

- birinci dəfə yol verdikdə alınmış malların **10 faizi**,
- ikinci dəfə yol verdikdə **20 faizi**,
- üç və daha çox dəfə yol verdikdə isə **40 faizi miqdarında** maliyyə sanksiyası tətbiq edilir.

Odur ki, qanunvericiliklə nəzərdə tutulmuş hallarda qeyd edilmiş müddətdən etibarən elektron qaimə-fakturanın tətbiqinə başlanılmalıdır. Fəaliyyətinizlə bağlı risklərin yaranmaması, hər hansı maliyyə itkilərinə məruz qalmamağınız üçün mövcud qanunvericiliyin tələblərinə əməl etməyiniz tövsiyə olunur.

Vergi qanunvericiliyinin tətbiqi və inzibatçılığı ilə bağlı əlavə məlumat almaq üçün Vergilər Nazirliyinin rəsmi internet saytına (www.taxes.gov.az), Çağrı Mərkəzinə (195-1) və vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciət edə bilərsiniz.

Azərbaycan Respublikası Vergilər Nazirliyi

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən korrupsiya və digər hüquqpozma hallarına yol verildiyi ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;

* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik departamentinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik departamentinə» qeydi olan məktubları göndərməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;

* Daxili təhlükəsizlik departamentinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.
Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik departamenti;

* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

beynəlxalq panoram

# İsveçrə ƏDV haqqında qanuna dəyişiklik edəcək

Yeni qanun layihəsi gələn il yanvarın 1-dən qüvvəyə minəcək. Layihədə nəzərdə tutulan dəyişikliklərin əksəriyyəti İsveçrə şirkətləri üçün rəqabət aparmağa mane olan çatışmazlıqların aradan qaldırılmasına yönəldilmişdir.

Hazırda qüvvədə olan qanuna əsasən, İsveçrədə fəaliyyət göstərən xarici şirkətlər illik gəlirləri 100 min avrodan az olan dövriyyə üçün əlavə dəyər vergisi ödəməkdən azad edilirlər. Qanunun xarici şirkətlərə verdiyi bu imtiyaz xüsusilə də sərhədə yaxın ərazilərdə yerləşən yerli şirkətlər üçün əlverişsiz vəziyyətin yaranmasına gətirib çıxarmışdır.

Yeni qanun layihəsi qüvvəyə minəndən sonra vergi orqanları tərəfindən, xarici bölmələr də daxil olmaqla, xarici şirkətlərin dövriyyəsi tam nəzərə alınacaq. Əgər ümumi dövriyyə 100 min avrodan artıq olarsa, şirkət İsveçrədə əmələ gəlmiş dövriyyənin hamısı üçün əlavə dəyər vergisi ödəyəcək. Bundan əlavə, dəyişiklik elektron qəzet, jurnal və kitablar üçün 2,5 faizlik azaldılmış vergi dərəcəsinin müəyyənləşdirilməsini də nəzərdə tutur.

# İrlandiyada 850 rəsmi milyoner qeydə alınıb

Ölkənin vergi idarəsinin açıqlamasında bu rəqəmin 2015-ci ildə təqdim edilmiş rəsmi vergi bəyannamələrinə əsasən əldə edildiyi bildirilmişdir. Beləliklə, son illərdə İrlandiya iqtisadiyyatının sürətlə bərpa olunması milyonerlərin də sayının artımına səbəb olmuşdur. Bundan əlavə, varlıların sərvəti də daha böyük templə artmışdır: son iki il ərzində onların gəlirləri təxminən iki dəfə yarım çoxalmışdır.

Əslində, ölkədə milyonerlərin sayı göstərilən rəqəmdən artıq da ola bilərdi. Vergi idarəsi birlikdə vergi bəyannaməsi təqdim edən ər-arvadı vahid vergi ödəyicisi hesab etdiyinə görə, milyonerlərin sayı az göstərilir. 850 milyonerin illik gəliri ümumilikdə 2,8 milyard avro, başqa sözlə desək, adambaşına 3,4 milyon avro təşkil edir. Müqayisə üçün bildirək ki, 2013-cü ildə İrlandiyada 616 rəsmi milyoner qeydə alınmışdı və onların illik gəlirinin ümumi məbləği 1,2 milyard avro idi.

Son illərdə İrlandiya iqtisadiyyatın artımı və vətəndaşların rifah halının yaxşılaşdırılması üzrə böyük irəliləyişlər nümayiş etdirir. Mütəxəssislər bunun səbəbini rasional vergi siyasətinin həyata keçirilməsində görürlər. Bu siyasət kiçik və orta biznesi İrlandiyaya cəlb edir. «Intelligent Solution Group» adlı beynəlxalq konsaltinq şirkətinin məlumatına əsasən, İrlandiya MDB-yə daxil olan ölkələrin vətəndaşları arasında qeyri-rezident şirkətlərin açılmasına görə ikinci yeri tutur.

# Qazaxıstan ilə ABŞ arasında FATCA sazişi imzalanıb

Hökumətlərarası FATCA sazişinin imzalanması vergilərin ödənilməsinə dair qanunlara əməl edilməsini dəstəkləmək məqsədilə hər bir ölkənin rezident vergi ödəyicilərinə aid maliyyə informasiyalarının avtomatik şəkildə mübadilə edilməsinə imkan yaradacaq.

Saziş sentyabrın 11-də Qazaxıstanın paytaxtı Astana şəhərində imzalanmışdır. Qazaxıstanın maliyyə naziri Baxıt Sultanov diqqəti FATCA saizşinin əhəmiyyətinə yönəldərək bu sazişin dünya üzrə məlumat mübadiləsi sistemi olduğunu, Qazaxıstanın vergi sisteminə müsbət təsir göstərəcəyinə ümid etdiyini bildirmişdir.

FATCA-nın 1-ci modeli Qazaxıstanın maliyyə qurumlarından məlumatları dövlət orqanına ötürməyi tələb edir: bu məlumatlar oradan ABŞ-ın Ölkədaxili Gəlirlər Xidmətinə (IRS) ötürülməlidir. Saziş üzrə öhdəliklər qarşılıqlı olduğuna görə ABŞ maliyyə qurumları da eyni qaydada hərəkət etməli, Qazaxıstan vətəndaşlarının vergi ilə bağlı fəaliyyətlərinə dair informasiyanı ölkənin vergi orqanlarına ötürməlidirlər. Sazişə uyğun olaraq, Qazaxıstanın maliyyə müəssisələrinin ABŞ-dan olan FFI (xafici maliyyə müəssisəsi) ilə müqavilə bağlamasına ehtiyac qalmır, lakin onlar bütün hallarda FATCA IRS-in portalında qeydiyyatdan keçməlidirlər.

# Britaniyada iki milyon ailə vergi güzəştlərindən imtina edib

Vergi güzəşti almaq hüququna malik Britaniya ailələrinin, demək olar ki, yarısı həmin güzəşti almaq üçün müraciət etməmişdir. Vergilər və Yığımlar İdarəsinin (HMRC) məlumatında bildirilir ki, bütün ölkə üzrə 4,4 milyon ailənin 230 funt sterlinq məbləğində vergi güzəştindən istifadə etmək hüququ olsa da, onlardan yalnız 2,2 milyonu bu hüququnu reallaşdırmışdır.

Xatırladaq ki, iki il əvvəl HMRC müəyyən şərtlərə cavab verən ailələrə və ya vətəndaş nikahı ilə yaşayan şəxslərə vergi güzəştləri tətbiq edəndən az sonra həmin güzəşti almaq üçün şərtlər xeyli sadələşdirilmiş və bunun sayəsində güzəşt alanların sayı ikiqat artmışdır. «Müraciət edənlərin sayı ildən-ilə artır, ərizə vermək prosedurları isə sadələşdirilir, ailələr özləri üçün münasib olan vaxtda müraciət edə bilirlər», - HMRC-nin mətbuat xidmətindən bildirilmişdir. Qeyd edək ki, güzəşt o ailəyə verilir ki, ya ərin, ya da arvadın illik qazancı 11.500 funt sterlinqdən artıq olmadıqda onun həyat yoldaşı öz əməkhaqqının 20 faizi həcmində vergi ödəmiş olsun.

# Fransada vergi amnistiyası bu ilin sonunadək qüvvədə olacaq



Fransa hökuməti vergi ödəyicilərinə xəbərdarlıq etmişdir ki, elan olunmamış aktivlərin vergi amnistiyası sxemi üzrə açılması ilin sonuna qədər davam etdiriləcək. Qeyd edək ki, bu sxemin tətbiqinə başlanmasından artıq dörd ildən çox vaxt keçir. Səhihləşdirici bəyannamələrin işlənib hazırlanması sxemi (STDR) 2013-cü il iyunun 21-dən dövriyyəyə buraxılmışdır və vergi ödəyicilərinə cərimələrin azaldılmasının qarşılığı olaraq xarici ölkələrdə qazanılan elan edilməmiş gəlirləri və aktivləri açıqlamaq imkanı yaradır.

İctimai hesablar üzrə nazir Qarald Darmaninin açıqlamasına görə, hazırda fəaliyyətdə olan bu sxem 2017-ci il dekabrın 31-də qapadılacaq. 2018-ci il yanvarın 1-dək ediləcək və bu tarixdən sonra işləniləcək müraciətlər əvvəki sxemin şərtlərinə uyğun olacaq.

STDR yaradılandan bəri ondan 50 mindən artıq insan istifadə edərək planlaşdırıldığından 32 milyard avro (38 milyard ABŞ dolları) məbləğində artıq vəsait barədə bəyannamə vermişdir. Bu isə hökumətə 7,8 milyard avro əlavə vəsait yığmağa imkan yaratmışdır.

Açıqlamada bildirilmişdir ki, hökumət vergi fırıldağına qarşı «son dərəcə sərt» mübarizə aparmaq niyyətindədir. Bunlarla yanaşı, nazir əlavə etmişdir ki, gələcəkdə hesabatlılığın ümumi standartına uyğun olaraq, informasiyaların avtomatik mübadiləsinə ümid bəsləyir. Ümimi standart vergidən yayınmağa qarşı müqavimət göstərmək üçün artıq keçən aydan 50-dən artıq ölkədə tətbiq olunmağa başlamışdır.

Daha xəbərdə isə bildirilir ki, Beynəlxalq Valyuta Fondu Fransaya korporativ gəlir vergisini tədricən azaltmağı və kapitalın vergiyə cəlb edilməsinin səmərəliliyinin artırılması tədbirləri ilə birlikdə gəlir vergisinin dərəcəsinin dəyişdirilməsini tövsiyə etmişdir. «Planlaşdırılmış vergi islahatları rəqabət qabiliyyətini yüksəltməyə yardım edə bilər, lakin qeyri-səmərəliliyin və təhriflərin aradan qaldırılması üçün genişləndirilməməlidir», - BVF-nin ölkə üçün yeni məruzəsində qeyd edilmişdir.

Məruzəyə görə, ölkə azaltmaları «borcların maliyyələşdirilməsi, qeyri-səmərəli çıxılmaların və şirkətin böyüməsi üçün əngəllərin aradan qaldırılması üçün Vergi Məcəlləsindəki səthiliklərin azaldılması ilə uzlaşdırmalıdır». Fond, həmçinin, Fransaya uzunmüddətli əmanətlərin vergiyə cəlb olunmasını və istehsal vergisini yenidən nəzərdən keçirilməsini də tövsiyə etmişdir.

# Avstriya rəqəmsal sahə üzrə vergitutmada ortaq mövqenin tərəfdarıdır

Ölkənin maliyyə naziri Hans Yoq Şellinq Avropa İttifaqı ilə İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatını (OECD) rəqəmsal iqtisadiyyat sahəsində vergutuma məsələlərində ortaq mövqeyə gəlməyə çağırmışdır. O, Avropa Şurasının bu yaxınlarda keçirilmiş iclasında demişdir: «Rəqəmsal ofislərin tətbiqi ilə bağlı daha tez nəticələr əldə etmək üçün iş yalnız OECD daxilində çoxtərəfli səviyyədə deyil, həm də Avropa səviyyəsində aparılmalıdır». O əlavə etmişdir ki, bu sahədə «nəticələrin sürətlə əldə edilməsinə nail olmaq məqsədilə bütün ikitərəfli imkanları sərf etməyə» çalışmışdır. Bununla yanaşı, qeyd edilmişdir ki, İrlandiya Avropada fəaliyyət göstərən ən mühüm rəqəmsal şirkətlərin bu ölkədə yerləşdiyini nəzərə alaraq, vergi sahəsində tədbirlərin işlənib hazırlanmasında xüsusi rol oynayır.

Bir qədər əvvəl isə Şellinq bildirmişdi ki, 2018-ci ilin ikinci yarısından başlayaraq, Avropa İttifaqının rəhbərliyi səlahiyyətini aldıqdan sonra Avstriya gəlirlərin dəyişdirilməsinə və vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərinə daha artıq diqqət yetirməlidir. Onun sözlərinə görə, artıq Avropanın vergi komissarı Pyer Moskoviçi ilə müzakirə etdiyi plana ümumi korporativ vergi bazası, daimi «virtual» müəssisələr və poçt vasitəsilə aparılan bütün satışlardan əlavə dəyər vergisinin tutulması barədə təkliflər daxildir: «Daimi virtual müəssisələrə gəldikdə isə məqsədimiz internet şirkətlərinin, o cümlədən onlayn şəkildə mövcud olan şirkətlərin gəlirlərini və satışlarını qeydə almaqdır. Bununla belə, bu təklif irəli sürülərkən ölkədə fəaliyyət göstərən hər hansı daimi fiziki müəssisə nəzərdə tutulmur».

krossvord



**Yuxarıdan aşağı:** 1.Saz havası; 2.Respublikamızda keçiriləcək beynəlxalq yarış; 3.Şumerdə ən qədim şəhərlərdən biri; 4.Tuamotu (Fransa Polineziyası) arxipelaqında atoll; 5.Ümumdünya Vəhşi Təbiəti Mühafizə Fondunun (WWF) loqotipində əks olunan məməli heyvan növü; 6.Təqvimdə ilin ilk ayı; 9.Məşhur avtomobil markasının azərbaycanca deyiliş forması; 13.Üzərində vaqon, vaqonet və s. təkərlərinin hərəkət etdiyi polad yol; 15.Böyük Britaniyada fəxri titul; 16.Qədim türk dilində vergi və mükəlləfiyyətdən azad olunmuş rəiyyət; 17.Qazax rayonunda çay. Kürün sağ qolu; 18.Qədim yunan mifologiyasında titan tanrı; 20.Rusiya Federasiyasının Xabarovsk vilayətində çay; 21.Üst paltar üçün naxışlı yun parça materialı. **Soldan sağa:** 1.İşıq mənbəyindən çıxan şüaları əks etdirən cihaz; 5.Bir neçə adam arasında bölünən şeydən hər birinə düşən hissə; 7.Türkiyədə gündəlik ictimai-siyasi qəzet; 8.Monqolustanın şimal-şərqindən keçən çay; 10.Sakit okeanda ada dövlət; 11.Qəraib dənizinin cənub-şərqində ada; 12.Qədim Misir mifologiyasında hamilə qadınların və körpələrin himayəçisi; 14.Fransa rəssamı, postimpressionizm və primitivizm cərəyanının nümayəndəsi; 19.Yunan mifologiyasında işıq, kəhanət, şeir və musiqi tanrısı. Həmçinin ABŞ-da NASA tərəfindən həyata keçirilmiş Aya uçuş layihəsinin və kosmik aparatın adı; 21.Türkiyədə şəhər; 22.Saç boyamaq üçün bitki yarpaqlarından hazırlanan toz; 23.Ordubad rayonu ərazisində dağ; 24.İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı (OECD) nəzdində Nüvə Enerjisi Agentliyinin qısaldılmış adı; 25.Var-dövlət hesabına nüfuz və hakimiyyət əldə edən şəxs.



*Qəraib dənizinin cənub-şərqində ada*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kompas; 2.Münster; 3.Duala; 4.Adidas; 5.Tarif; 6.Dekabr; 9.Trio; 13.Arzu; 15.Belqrad; 16. Ədalət *(Şükürov)*; 17.Artrit; 18.Katana; 20.Alver; 21. Kübra *(Əliyeva)*. **Soldan sağa:** 1.Komediant; 5.Tad; 7.Mandarin; 8.Ərik; 10.Astra; 11.Aerofob; 12.Priap; 14.Torba; 19.Drayzer *(Teodor)*; 21.Kalka; 22.Lava; 23.Probirka; 24.Tar; 25.Şotlandka.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

**Təsisçi:** Azərbaycan Respublikası Vergilər Nazirliyi

**Baş redaktor:** Anar Əliyev anar.eliyev@taxes.gov.az

**Baş redaktor müavini:** Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

**Ünvan:** AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

**Telefon:** 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

**Tiraj: 15000**

## idman

# Qadın voleybolçular arasında Avropa çempionatı başa çatdı

### *Medal qazanmağa yaxın olan Azərbaycan millisi 4-cü yerlə kifayətləndi*

Azərbaycanın və Gürcüstanın birlikdə ev sahibliyi etdiyi qadın voleybolçular arasında Avropa çempionatına yekun vurulub. Turnir ərzində əla oyun nümayiş etdirən Serbiya voleybolçuları çempionatın qızıl medallarına sahib olublar.

Azərbaycanın və Gürcüstanın birlikdə ev sahibliyi etdiyi qadın voleybolçular arasında Avropa çempionatına yekun vurulub. Turnir ərzində əla oyun nümayiş etdirən Serbiya voleybolçuları çempionatın qızıl medallarına sahib olublar.




Əsas mübarizə çempionatın yarımfinalına vəsiqə əldə etmiş dörd komanda - Azərbaycan, Niderland, Serbiya və Türkiyə komandaları arasında keçirilib. Finala vəsiqə uğrunda ilk olaraq Azərbaycan və Niderland komandaları üz-üzə gəliblər. Gərgin idman mübarizəsi şəraitində keçən oyunun qalibi taybrekdə müəyyənləşib. Təəssüf ki, Azərbaycan millisi həlledici setdə rəqibinə 12:15 hesabı ilə məğlub olub. Növbəti yarımfinal oyununda isə Serbiya voleybolçuları Türkiyədən üstün oyun nümayiş etdiriblər - 3:0.

Oktyabrın 1-də 3-cü yer uğrunda mübarizədə Türkiyə komandasına 1:3 hesabı ilə məğlub olan Azərbaycan millisi çempionatı 4-cü yerdə başa vurub. Final oyununda isə Niderland və Serbiya komandaları üz-üzə gəliblər. Qarşılaşmanın ilk seti Serbiya voleybolçularının 25:20 hesablı üstünlüyü ilə başa çatıb. Oyunun gərgin idman mübarizəsi şəraitində keçən ikinci setində Niderland millisinin inadlı müqavimətinə baxmayaraq, Serbiya kollektivi yenə də qalib gəlib - 25:22. Üçüncü set daha inamlı təsir bağışlayan Niderland millisinin üstünlüyü ilə başa çatıb - 18:25. Lakin dördüncü setdə Niderland yığmasına şans verməyən serbiyalı voleybolçular böyük hesabla üstün olublar - 25:18. Beləliklə, rəqibini 3:1 hesabı ilə məğlub edən Serbiya yığma komandası ikiqat Avropa çempionu adını qazanıblar.

Xatırladaq ki, sentyabrın 22-də start götürən çempionatın final mərhələsində 16 komanda dörd qrupda mübarizə aparıb. «A» qrupunda Azərbaycan, Almaniya, Polşa və Macarıstan yığma komandaları yer alıblar. Çempionata ev sahibliyi edən digər ölkənin - Gürcüstanın yığma komandası İtaliya, Xorvatiya və Belarus milliləri ilə birlikdə «B» qrupunda yarışıblar. «C» qrupunda Rusiya, Türkiyə, Bolqarıstan və Ukrayna yığmaları qrupdan çıxmaq uğrunda mübarizə aparıblar. «D» qrupunda isə Serbiya, Niderland, Belçika və Çexiya yığma komandaları qərarlaşıblar.

«A» və «C» qruplarının qarşılaşmaları Bakıdakı Milli Gimnastika Arenasında keçirilib. «B» qrupunun görüşləri Tbilisidə, «D» qrupunun matçları isə Göygöl Olimpiya İdman Kompleksində oynanılıb.

# Azərbaycanın yeniyetmə atletlərindən tarixi nailiyyət

### *Milli komandamız yeddi Avropa rekordunu yeniləyib*

Kosovonun paytaxtı Priştina şəhərində keçirilən 15 və 17 yaşlı yeniyetmə ağır atletlər arasında Avropa birinciliyi başa çatıb. Yarışda 40-a yaxın ölkədən 264 atlet medallar uğrunda mübarizə aparıb.



Azərbaycan Ağır Atletika Federasiyasından bildirilib ki, yığmamızın yeddi üzvü yaşı 15-ə qədər olan atletlərin mübarizəsinə qoşulub. Onların birdən və təkanla qaldırma hərəkətləri, həmçinin toplamda qazandıqları medalların sayı 11-ə bərabər olub. Bunlardan altısı qızıl, ikisi gümüş, üçü bürünc medaldır. Elşən Məmmədov (50kq) birdən qaldırma və toplamda bürünc, Rüstəm Qasımov (56 kq) birdən, təkanla qaldırma və toplamda qızıl, Tarmenxan Babayev (85 kq) birdən, təkanla qaldırma və toplamda qızıl, Rəhman Kazımov (94 kq) birdən qaldırma və toplamda gümüş, təkanla qaldırmada isə bürünc medalla fərqləniblər.

Azərbaycanın yeniyetmə oğlan ağır atletlərdən ibarət yığma komandası medal sayında Avropa birinciliyinin ən yaxşı komandası seçilib. Həmçinin yığma komandamızın üzvləri yeddi Avropa rekordunu yeniləməklə də yadda qalıblar. Rüstəm Qasımov birdən qaldırma hərəkətində, Tarmenxan Babayev isə üç dəfə təkanla qaldırma, 3 dəfə də toplamda Avropa rekordlarını yeniləyiblər.

Yaşı 17-yə qədər olan atletlərin mübarizəsində isə qızlar arasında Səbinə Əzimova (53 kq) qızıl medala sahib çıxaraq, üçqat Avropa çempionu tituluna yiyələnib. Bununla yanaşı, gözəl çıxışla yadda qalan Səbinə Əzimova Sinkleyr cədvəli üzrə hesablanan reytinqdə yeniyetmələr arasında Avropa birinciliyinin ən güclü qadın atletləri arasında ikinci yeri tutub.

Beləliklə, Azərbaycanın yeniyetmələrdən ibarət yığma komandası Kosovoda tarixi nailiyyətə imza atıb. İndiyə qədər heç bir yarışda milli komandamız Avropanın ən yaxşısı adını qazanmamışdı.

# Fəxri kürsünün ən yüksək pilləsində...



Azərbaycan cüdoçusu Rüstəm Orucov Xorvatiyanın paytaxtı Zaqrebdə keçirilən cüdo üzrə Qran-Pri yarışının qalibi olub. Yarışda 73 kiloqram çəki dərəcəsində mübarizə aparan idmançımız bütün rəqiblərinə qalib gələrək beynəlxalq yarışda fəxri kürsünün ən yüksək pilləsinə qalxıb. Cüdoçumuz ardıcıl olaraq Xorvatiya, İtaliya, Yaponiya, Braziliya və İsveç təmsilçilərini məğlub edib. Qran-Pri turnirində qalib gələn idmançımızın şərəfinə Azərbaycan Respublikasının dövlət himni səsləndirilib, üçrəngli bayrağımız qaldırılıb.

## mozaika

texnologiya



# Yeni biometrik ödəniş sistemi sınaqdan keçirilir

Böyük Britaniyanın paytaxtı London şəhərindəki «Costcutter» supermarket şəbəkəsi damarların analizinə əsaslanan biometrik ödəniş sisteminin sınaqlarına başlayıb. «Fingopay» adlandırılan texnologiya «Hitachi» şirkətinin mütəxəssisləri tərəfindən hazırlanıb. Sistemin tətbiqi ilə biometriyanı dəstəkləyən ödəniş xidmətləri üzrə ixtisaslaşan «Sthaler» şirkəti məşğul olur.

«Fingopay» platforması barmaqda olan damarların oxunması üçün xüsusi qurğudan istifadəni nəzərdə tutur. Əldə olunmuş unikal barmaq izi sonra istifadəçinin bank kartı ilə əlaqələndirilir. Qeydiyyat prosedurunu keçdikdən sonra debet və ya kredit kartlarını, həmçinin nağd pulu cibdə gəzdirməyə ehtiyac qalmayacaq, barmağın köməyi ilə ödəniş etmək mümkün olacaq.

Sistem yüksək etibarlılıq dərəcəsinə malikdir. Damarların orqanizmin daxilində olması və bir çox fərqləndirici xüsusiyyətlər özünü başqa biri kimi təqdim etməyi son dərəcə çətinləşdirir. Sınaqlar müsbət nəticə verərsə, «Fingopay» sistemi «Costcutter» şəbəkəsinin digər ticarət nöqtələrində də tətbiq ediləcək.

robototexnika

# Evlərin təhlükəsizliyinə robotlar nəzarət edəcək

«Ağıllı» texnologiyalar hər ötən gün həyatımıza daha çox daxil olur. Gündəlik həyatda evimizin təhlükəsizliyinə nəzarəti təmin edən «Aevena Aire» adlı ev robotu gələcəkdə vaxtaşırı istifadə ediləcək yeni texnologiyanın başlanğıcı ola bilər.



«Aevena Aire» digər dron modellərə nisbətən daha səssiz işləyir. Sensorlar sayəsində uçan bu qurğu heç bir əşyaya toxunmadan evə nəzarət edir. İnternetə çıxışı olan robot vasitəsilə evə kənardan da nəzarət etmək mümkündür. Evin təhlükəsizliyinə nəzarət baxımından «Aevena Aire» buna bənzər digər texnologiyaları üstələyir. Belə ki, evin hər küncündə təhlükəsizlik kamerası yerləşdirmək əvəzinə, bu robotdan istifadə olduqca səmərəlidir. Çünki uçaraq evin istənilən yerini lentə alan «Aevena Aire» təhlükəsizliyə ciddi nəzarət etməyi bacarır.

Bu ilin sentyabrında satışa çıxarılacaq məhsulun qiymətinin 1499 ABŞ dolları təşkil edəcəyi bildirilir.

təbiət möcüzələri

# Arı üçün «tikinti materialı», xəstə üçün bioloji aktiv məhsul

Mum çox qədimdən məlum olan və müalicə məqsədilə təbabətdə istifadə edilən əhəmiyyətli xammaldır. Bərk dənəvər xammal olan mumu işçi arılar hazırlayır. Arının çənə və yuxarı qarıncığında səkkiz xüsusi mum vəzisi yerləşir və ifraz etdiyi mum havanın təsirindən bərkiyərək yarımşəffaf lövhəciklərə çevrilir. Ondan tikinti materialı kimi istifadə edən işçi arılar şanı yığmaq, ana və erkək arılar isə süfrə çıxarmaq, nəsil artırmaq üçün üskükvari yuvalar düzəldirlər.

Arılar dolmuş yuvacıqları - pətəyi mumla suvayırlar. Pətəklərin içindəki yuvacıqlar hər tərəfdən altıbucaqlı mum arakəsmələrlə əhatələnir və arı şanının divarını təşkil edir. 43,5x30 santimetr ölçüdə olan çərçivədə 4 kiloqrama qədər yetişmiş bal olur. Riyaziyyatçılar hesablayıblar ki, ən az mum işlədərək ən çox bal yuvacığı hazırlayıb çoxlu bal götürmək yalnız altıbucaq formalı şan düzəltməklə mümkündür. Arılar çərçivəni ayrı-ayrı küncündən toxuyaraq onları bir-birinə elə birləşdirirlər ki, 1 millimetr belə işlənməmiş sahə qalmır, çünki pətək kompüter dəqiqliyi ilə hörülür.

Arılar 1 kiloqram mum istehsal etmək üçün 3,5 kiloqram bal və çiçək tozundan istifadə edirlər. Ən güclü arı ailəsi bir məhsul mövsümündə 2 kiloqrama qədər mum istehsal edə bilir.

Pətəkdə ana arı yuvacıqlara sürfə qoyur və onlar yetkin arıya çevrilib çıxandan sonra sürfənin qalıqları və ifrazatı yuvacıq divarına yapışır, getdikcə pətək qaralır, yuvaların həcmi kiçilir və istifadə üçün yararsız olur. Elə buna görə də təzə, sarı rəngli çərçivələrdə mumun miqdarı 86-100, qəhvəyi və tünd qəhvəyi rəngli pətəklərdə isə 49-60 faiz olur.

Mumun kimyəvi tərkibi çox mürəkkəbdir, onun tərkibində 300-dən çox maddə, o cümlədən 70-75 faiz mürəkkəb efirlər, sərbəst yağ turşuları, karbohidratlar, su, aromatik rəngləyicilər və s. aşkar edilib. Mum bioloji aktiv məhsuldur və güclü bakterisid təsirə malikdir. Ağız boşluğu xəstəliklərində balla mumu çeynəmək müalicəvi təsir göstərir. Mum bitki və heyvani yağlarda yaxşı həll olur. Ondan hazırlanan məlhəm və balzamlardan dəri xəstəlikləri və yaraların müalicəsində istifadə edilir. Tərkibindəki A vitamini dəriyə qidalandırıcı və sağaldıcı təsir göstərir. Oynaq xəstəlikləri, endarterit və miozitlərdə mumla mastika etmək müsbət nəticə verir. Spastik kolitlərdə mumun daxilə qəbulu çox faydalıdır. Mum mədədə həzm olunmur, yumşaq, elastik maddə kimi həzm sistemi və bağırsaqlara yaxşı təsir göstərir.

Müasir kosmetologiya və farmakologiyada müxtəlif krem, məlhəm, emulsiya və şamların hazırlanmasında mumdan geniş istifadə olunur. Parfümeriya zavodlarında mumdan alınan efir yağı keyfiyyətinə görə gül və jasmin efirindən geri qalmır və daha ucuz başa gəlir. Krem, dodaq boyaları, gözə çəkilən qələmlər, ənlik və dezodorantların istehsalında mumdan geniş istifadə edilir. Üzə vurulan bəzi kosmetoloji maskaların tərkibində də mum olur.



Qədimdə rəssamlar mumdan enkaustik boyalar alır və həmin rənglə çəkilmiş rəsmlər uzun müddət təravətini itirmirdi. Mum elektrotexnika, poliqrafiya, ağac emalı, toxuculuq və şüşə sənayesində də qiymətli xammal hesab edilir.

mədəniyyət

# Azərbaycan dilində film beynəlxalq festivalda...

İranın tanınmış rejissoru Əsgər Yusifinejadın Azərbaycan dilində çəkdiyi «Ev» filmi Tokioda keçiriləcək Beynəlxalq Film Festivalında nümayiş etdiriləcək.

Tehranda təşkil olunan «Fəcr» Film Festivalında mükafata layiq görülən 78 dəqiqəlik «Ev» filmi bir ailənin üzvlərinin mənəvi dünyasının zənginliyindən bəhs edir.

İranlı rejissor bildirib ki, bu, onun Azərbaycan dilində çəkdiyi son film olmayacaq. Onun sözlərinə görə, daha bir ssenari əldə edib və Azərbaycan dilində yeni film çəkməyi düşünür.

**Müdriklər deyib ki...**

*«Təcrübə yüksəlişin qanadıdır».*

*Cəfər Cabbarlı (1899-1934)*

